QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 150 (5870) **21 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Altı ayın uğurları: Azərbaycan liderliyini saxlayır



Səh 2

4

**Ermənistanda etirazçılar parlament binasını mühasirəyə alıblar!**



6

**Əli Kərimli, bu təfəkkürlə səni heç "Relax"a ofisiant da götürmək olmaz...**



8

**"SOSİAL ŞƏBƏKƏ MÜXALİFƏTÇİLİYİ"NDƏN "SÖYÜŞ MÜXALİFƏTÇİLİYİ"NƏ TRANSFORMASİYA**



# Altı ayın uğurları: Azərbaycan liderliyini saxlayır



***Məlum olduğu kimi, iyulun 31-də dövlət başçısının yanında bu ilin ilk altı ayının yekunlarına həsr edilmiş xüsusi müşavirə keçirilib. Tədbirdə 2019-cu ilin altı ayı ərzində sosial-iqtisadi sahədə həyata keçirilən proqramlar müzakirə edilib. Prezident İlham Əliyev nitq söyləyərək konkret faktlarla əldə edilən nailiyyətləri təhlil edib. Qeyd olunub ki, Azərbaycan dayanıqlı inkişaf yolu ilə inamla irəliləyir. Bu ilin keçən müddətində də bir sıra əhəmiyyətli proqramlar reallaşdırılıb və bu proses sürətlə davam edir. Nəzərdə tutulan 6,4 milyard manatlıq sərmayənin artıq 5,7 milyard manatı müvafiq ünvana yatırılıb. Nəticədə, 11 mindən çox yeni iş yeri açılıb. Ölkənin valyuta ehtiyatı 4 milyard dollar çoxalıb. Bütövlükdə Azərbaycan bütün istiqamətlərdə islahatları davam etdirir. Deyilənlərin fonunda ölkədə həyata keçirilən inkişaf kursunun 2019-cu ilin ilk altı ayında ifadəsinin geosiyasi təhlilinə ehtiyac görürük.***

## İslahatların mərkəzi punktu: insan rifahı!

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov iyulun 30-da Nazirlər Kabinetinin növbəti iclasında vurğulayıb ki, "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın bütün sahələrində həyata keçirilən strategiya əhalinin həyat səviyyəsinin yaxşılaşmasına, dünya iqtisadiyyatına inteqrasiyanın daha da sürətlənməsinə imkan yaradır. Ölkəmizin şəhər və rayonlarında bir sıra mühüm sosial infrastruktur layihələri uğurla icra olunur".

Baş Nazirin vurğulanan fikirlərinin arxasında konkret faktlar dayanır. İndi qlobal miqyasda sosial-iqtisadi, maliyyə və siyasi vəziyyət elədir ki, gənc müstəqil dövlətlərin əhalinin həyat səviyyəsini yaxşılaşdırmağa və ölkəni dünya iqtisadi sisteminə inteqrasiya etməyə imkan yaradan siyasi kursunun müəyyən edilərək həyata keçirilməsi kifayət qədər çətindir. Lakin Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasını daha da inkişaf etdirən Prezident İlham Əliyev bu vəzifənin öhdəsindən layiqincə gəlir. Bu səbəbdən Novruz Məmmədovun ifadə etdiyi fikir bütövlükdə Azərbaycanda həyata keçirilən inkişaf və islahatlar strategiyasını ifadə edir.

Dövlət başçısının iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirdiyi müşavirədə səslənən fikirlər və gətirilən faktlar yuxarıda vurğulanan tezisin tam doğru olduğunu təsdiq edir. Prezident İlham Əliyev müşavirədəki nitqində ifadə edib: "Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı sarsıdan və bizə də təsirsiz ötüşməyən iqtisadi-maliyyə böhranı artıq arxada qalıb. Biz bu böhrandan şərəflə çıxa bilmişik. Öz valyuta resurslarımızı qoruya bilmişik və artırmışıq".

Doğrudan da, Azərbaycan o ölkələrdəndir ki, 2008-ci ildə dünyanı bürüyən və nəticələri bu günə qədər davam edən iqtisadi və maliyyə böhranından az itki ilə çıxdı. Bu, ölkə rəhbərliyinin səmərəli inkişaf kursunu dönmədən müstəqil şəkildə həyata keçirməsi sayəsində mümkün oldu. Həmin tezisi əldə olunan nailiyyətlər sübut edir. Prezident tam əminliklə deyir ki, Azərbaycan inamla inkişaf edir. Bakı böyük infrastruktur layihələrini icra edir. Ümumi iqtisadi vəziyyətin olduqca müsbət olduğunu faktlar təsdiq etməkdədir. Təkcə bu ilin altı ayında qazanılan uğurlara nəzər salmaqla buna əmin olmaq olar. Ölkə rəhbəri müşavirədə həmin kontekstdə konkret olaraq deyib: "İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə, əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür... Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır".

Müqayisə üçün deyək ki, dünyanın ən güclü iqtisadi sisteminə malik olan Amerikada bu ilin altı ayı ərzində iqtisadi artım 2,1 faiz təşkil edib. Avropa İttifaqının böyük dövlətlərində artım 2-3 faiz civarında olduqda, ciddi nailiyyət kimi qəbul edilir. Belə görünür ki, Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri ilə müqayisədə də kifayət qədər dayanıqlı inkişaf və sürətli iqtisadi artım nümayiş etdirir.

## İnamla irəli: sürətli inkişafa davam...

Ayrılıqda qeyri-neft sektorunun 15 faizdən artıq inkişaf göstəricisi böyük hadisədir. Bu o deməkdir ki, Azərbaycan bütün sahələrdə dayanıqlı inkişaf xəttindədir və o, yeni texnologiyaların tətbiqinə, iqtisadiyyatın diversifikasiyasına ciddi önəm verir. Ümumilikdə isə bütün bunlar sənayeləşmə siyasətinin çox uğurlu olduğunu təsdiq edən faktlardır.

Bunların fonunda həm Azərbaycan iqtisadiyyatına qoyulan sərmayələrin səmərəli istifadəsi, həm də islahatların müxtəlif sferalar üzrə aparılması sevindiricidir. Dövlət başçısı bu bağlılıqda müşavirədə xüsusi vurğulayıb: "Qeyri-neft ixracımız 15 faiz artmışdır. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Bu da yaxşı göstəricidir, əhalinin gəlirləri 6,6 faiz artmışdır. Büdcə daxilolmaları Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox artmışdır, yəni, plandan əlavə yığılmışdır və bu da aparılan islahatların təzahürüdür".

Burada kiçik bir müqayisə aparmaq yerinə düşərdi. Ermənistan üçün nəzərdə tutulub ki, 2019-cu il büdcəsi 9 faiz artsın, xərclər isə 12 faiz çoxalsın. Rəqəmlərlə ifadədə bu, gəlirlərin 3,1 milyard dollar, xərclərin isə 3,4 milyard dollar olması deməkdir. Ermənistanın 2019-cu ildə xarici borcu isə 7 milyard dollardan artıq olmalıdır. Azərbaycan ölkə iqtisadiyyatına cəmi 6 ayda 6,4 milyard manat sərmayə qoymağı planlaşdırıb və onun 5,7 milyard manatı artıq reallaşıb. Yəni, faktiki olaraq, Azərbaycanın altı ayda iqtisadiyyata qoyduğu sərmayə Ermənistanın illik gəlirindən iki dəfə çoxdur!

Onu da qeyd edək ki, bu ilin ilk altı ayı ərzində valyuta ehtiyatları 4 milyard dollar artaraq 49 milyard dollar təşkil edib! Yəni, Azərbaycanın altı ay ərzində valyuta ehtiyatı Ermənistanın illik büdcə gəlirlərindən təqribən 1 milyard dollar çoxdur!

Bunlar onu göstərir ki, Azərbaycan regionda həm sürətinə, həm də gəlirlərin artımına görə şəksiz liderdir. Ermənistanın Azərbaycandan bütün sahələrdə xeyli geridə qalması prosesi davam edir. Bu xüsusda sosial sahədə həyata keçirilən proqramları Cənubi Qafqazda ən səmərəli və iri həcmli proqramlar adlandırmaq olar. Belə ki, "bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Olduqca önəmli addımlar atılmışdır - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb... Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir...".

Vurğulanan faktlar və aparılan kiçik müqayisə bir daha onu göstərir ki, müstəqil dövlət quruculuğu prosesi kifayət qədər mürəkkəb prosesdir və zərgər dəqiqliyi ilə siyasi-iqtisadi kursun müəyyən edilməsini tələb edir. Azərbaycan Cənubi Qafqazda yeganə dövlətdir ki, hər il yüksək sürətlə inkişaf edir və bu, dayanıqlı xarakter alıb.

2019-cu il isə bütövlükdə dünya üçün xeyli dərəcədə qeyri-müəyyənliklər və risklərlə doludur. Ən yüksək inkişaf etmiş ölkələrin iqtisadiyyatının verilən proqnozlara uyğun olub-olmayacağı məlum deyil. Üstəlik, ekspertlər xəbərdarlıq edirlər ki, dünyanı yeni iqtisadi-maliyyə böhranı gözləyir. Bu cür risklərlə əhatə olunan Azərbaycan iqtisadiyyatının əldə etdiyi ciddi uğurlar və dayanıqlı inkişaf, əlbəttə, qürur doğurmaya bilməz. Eyni zamanda, bu onu bir daha təsdiq edir ki, ölkə rəhbərliyi son dərəcə səmərəli və perspektivli inkişaf kursu həyata keçirir.

Bu inkişaf kursunda insan faktoru ilk sırada dayanır. İnsanların rifahı naminə hakimiyyət mümkün olan hər bir müsbət addımı atır. Təcrübə göstərir ki, bu proses getdikcə daha da genişlənir və sürətlənir. Tam əminlik vardır ki, Azərbaycan bu yolda daha inamlı və səmərəli addımlar atacaqdır. Müstəqil Azərbaycan həm də ən yüksək inkişaf səviyyəsinə yüksələcəkdir!

**Newtimes.az**

# Pakistan mətbuatında Azərbaycanla bağlı məqalələr dərc edilib

***Pakistanda nəşr olunan "Pakistan in the world" jurnalında və internet səhifəsində "Azərbaycan: İnkişaf və harmoniya ölkəsi", eyni zamanda, Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadənin müəllifi olduğu "Azərbaycan - Müsəlman Şərqində ilk parlamentli demokratiya" sərlövhəli məqalələr dərc edilib. AZƏRTAC xəbər verir ki, jurnalda dərc olunan məqalədə Azərbaycan xalqının uzun sürən azadlıq arzularının məntiqi nəticəsi olaraq, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi, bununla da azadlıq mübarizəsinin öz kulminasiya nöqtəsinə çatdığı qeyd olunur.***

Yazıda Cümhuriyyətin fəal xarici siyasət xətti yeridərək, xarici ölkələrlə ikitərəfli əlaqələr qurmaqla yanaşı, beynəlxalq səviyyədə tanınma istiqamətində də önəmli diplomatik fəaliyyət həyata keçirdiyi vurğulanır. Məqalədə 1991-ci ildə vətənpərvərlik, milli və mənəvi dəyərlər əsasında yenidən öz müstəqilliyini əldə edən Azərbaycan Respublikasının özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdiyi diqqətə çatdırılır. Bildirilir ki, 1993-cü ildə Prezident seçilən Heydər Əliyevin rəhbərliyi altında ölkədə siyasi və iqtisadi sabitlik bərqərar olub, həmçinin ictimai həyatın müxtəlif istiqamətlərində, eləcə də insan hüquqları və demokratiya sahəsində inkişaf mərhələsi başlayıb. Ulu Öndərin rəhbərliyi ilə xarici siyasət xətti qlobal və regional gerçəkliklərə uyğun yenidən qurulub, buna görə də indi Azərbaycan bütün beynəlxalq platformalarda öz mövqeyini qətiyyətlə müdafiə edir. Heydər Əliyevin həyata keçirdiyi səmərəli iqtisadi islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının durumu nəzərəçarpacaq dərəcədə dirçəlib. Məqalədə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi, iqtisadi və sosial islahatların davam etdiriləərək genişləndiyi, onun rəhbərliyi altında mühüm uğurlara imza atıldığı bildirilir. Yazıda Azərbaycanın geostrateji potensialına da toxunulur. Vurğulanır ki, Avropanın cənub-şərq sərhədlərində yerləşən Azərbaycan Avropa ilə Asiya arasında təbii körpü rolunu oynayır. Regionda ən böyük hava və dəniz limanı, habelə dəmir yolu xətti ilə Xəzər hövzəsi üçün logistik qovşağı olan Azərbaycan Transxəzər Şərq-Qərb Dəhlizi layihəsi vasitəsi ilə Çin və Avropanın 2 qlobal iqtisadi əlaqəsini təmin edir.



Pakistan
In The World

28 MAY

Special Report

Azerbaijan
Country of Progress & Harmony
Special Article on National Day 28 May 2019

Muhammad Ali

Azerbaijan, an ancient country of rich culture and civilization, representing beautiful combination of the East and the West, had been struggling to gain its freedom since it became a part of the Russian Empire because of Gulustan (1813) and Turkmanchay (1828) treaties.

This fight reached its culmination with the declaration of the Azerbaijan Democratic Republic (ADR) on 28 May 1918, reflecting logical result of long lasting passion of freedom of Azerbaijani nation. To establish sovereignty over entire Azerbaijan, the founders of ADR created a new army with the help of Ottomans Turks, which liberated the Azerbaijani territories from Bolsheviks, Armenian ultra nationalist groups (Dashnaks) in the summer of 1918 and finally victoriously entered Baku.

Being first democratic republic in the whole East and Islamic world, ADR was able to establish main state institutions. Within 6 months, the ADR also constituted a parliament, which reflected all ethnic and religious groups in the country. Old schools were replaced by new ones. Baku State University, the first modern university, was inaugurated in 1919. In spite of financial hardships, the Azerbaijani authorities could send 100 young students to the different educational institutions in Italy, France, Germany and the UK.

One of the significant successes towards democracy was the abolition of censorship, a Remnant from Tsarism. Ensuring women suffrage was another significant achievement of ADR, which was a pioneer in this matter, Getting ahead of the United States (1920) and France and Italy (1945).

ADR formulated an active foreign policy. In addition to building bilateral ties, setting up and hosting numerous diplomatic missions, the ADR government also sought international recognition as well. In the course of the Paris Peace Conference, an Azerbaijani delegation met with world leaders in May 1919. The Allies and the Entente at the Paris Peace Conference issued a resolution on de facto recognition of the Azerbaijani government in January 1920.Although ADR's existence was interrupted by the occupation of Soviet Russia in April 1920, ideals of nationalism and patriotism, which were placed in the hearts of Azerbaijanis,survived and ignited people's dream of freedom on the eve of USSR's collapse. Restoring its independence in 1991 based on patriotism, moral and national values, the Republic of Azerbaijan declared itself a successor state of the Azerbaijan Democratic Republic.

**Independent Azerbaijan in 1993-2003**

In 1993, Heydar Aliyev was elected the president of the independent Azerbaijan. Under his leadership, Azerbaijan ensured its political-economic stability and started the development in the different fields of social and economic life, as well as on human rights and democracy.

**Political Stability:**

Despite persisting hardships, Heydar Aliyev was able to achieve political stability in the country, eliminating unlawful armed and consolidating the state authority.

Adoption of Constitution and democracy: New Constitution of Azerbaijan drafted by special committee was adopted by referendum in 1995. It was the first constitution of independent Azerbaijan,prioritizing the principles of human rights, rule of law and separation of powers as the main directions.In August 1998, all kind of censorship over media was abolished on the decree of President Heydar Aliyev. Laws on political parties, non-governmental organizations and mass media were adapted to international standards.

**Foreign Policy:**

Under Heydar Aliyev's foreign policy was updated in accordance with the realities related to the global and regional circumstances. Tension created in ties with some countries was eliminated, and balanced foreign policy line in relations with global and regional countries provided. Azerbaijan's relations with neighboring countries were enhanced. Now, Azerbaijan declares its position in all international platforms and defends its rights successfully.

**Economy:**

Due to Armenian aggression against

08 May/June 2019

Məqalədə Azərbaycan dövlətinin həyata keçirdiyi yeni turizm və viza siyasəti barədə oxuculara məlumat verilir. Həmçinin Azərbaycanda İslam dəyərlərinin dirçəldilməsinə böyük əhəmiyyət verildiyi, minlərlə məscidin tikildiyi və ya bərpa edildiyi qeyd olunur.

Məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən də bəhs olunur. Bildirilir ki, münaqişə nəticəsində Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və 7 ətraf rayon ermənilər tərəfindən işğal olunub. BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində (822, 853, 874,884) Ermənistanın işğal etdiyi torpaqlardan geri çəkilməsi, məcburi köçkünlərin öz doğma evlərinə qayıtması tələb edilir. Buna baxmayaraq, Ermənistan beynəlxalq hüququn tələblərinə məhəl qoymur və işğalçılıq siyasətini davam etdirir. "Azərbaycan - Müsəlman Şərqində ilk parlamentli demokratiya" sərlövhəli məqalədə isə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, 1919-cu il iyulun 9-da Azərbaycanın ilk Xarici İşlər Nazirliyinin rəsmi olaraq təsis olunması haqqında məlumat verilir. Yazıda müasir Azərbaycanın Cümhuriyyətin varisi kimi müstəqilliyini bərpa etdikdən sonra müəyyən çətinliklərdən, sınaqlardan şərəflə keçməsindən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən və Azərbaycan diplomatiyasının 100 illik yubileyindən bəhs olunur.



Special Report

28 MAY

Pakistan
In The World

Azerbaijan, and internal political instability since the early 1990s, production in major sectors of economy had significantly dropped. After Heydar Aliyev implemented productive privatization policies, Azerbaijan's economy started improving remarkably.

**Contract of Century:**

Contract of Century

Signature of "Contract of century" with 11 transnational oil companies of 7 powerful countries played very important role in enabling Azerbaijan to increase production of its energy resources and export to the world, and in creation of economic stability inside the country. 3 years after signing of "Contract of century", in November 1997, Azerbaijan International Operation Company, which was composed of the parties of "Contract of century", achieved oil gusher from first well of "Chirag".In November 1999, in frame of OSCE Summit held in Istanbul, Presidents of Azerbaijan, Georgia and Turkey signed intergovernmental agreement with participation of US President on construction of Baku-Tbilisi-Ceyhan main export oil pipeline to transport Azerbaijan's energy resources from Baku (Azerbaijan) to Ceyhan (Turkey). Despite numerous obstacles, this project was realized.

GDP growth increased from 1.3% in 1996 to 10% in 1998. Because of effective measures, 21 % GDP growth was achieved between 1992-2002. Inflation was also brought under control; while in 1991-1994 inflation rate had risen to into 1763%, as a result of economic reforms it declined to 8,5% in 1999, became stable in following years.Incomes of state budget for 2002 increased 85 times from 1993.

During the presidency of Ilham Aliyev since in 2003, political, economic and social reforms have been continued and expanded. Significant achievements and potential obtained under the leadership of Ilham Aliyev are:

* In the past 10 years:GDP grew by 2.4 times, non- oil GDP by 2.3 times, foreign trade by 2.4 times, strategic currency reserves by 16.3 times

*Foreign debt of Azerbaijan is only 17% of the GDP,the volume of currency reserves accounts to about 77% of the GDP(2019)

*37th most competitive economy among 140 countries (WEF Global Competitiveness Report 2016-2017)

*Safety, government and political stability are considered the strongest factors by international business community operating in Azerbaijan

*Investments worth 220 billion USD since 1995.

**Attractive Investment Climate**

-Attractive investment incentive schemes

-NO restrictions to foreign investments. National regime applied

-NO local content requirement

-NO business inspections by state authorities and agencies

-Party to all major multilateral instruments on protection and promotion of foreign investment

Investment

-47 bilateral investment treaties and 51 double taxation treaties with foreign countries

-Over 450 e-services by state authorities

Skilled Labour Force

-About half of the population is economically active.Total labour force reached 4.84 million persons

-One of the highest employment rates in the region(95%)

-The main driver of employment is the private sector(74%)

-Extremely high literacy rate of 99.8%

-Around 30 thousand students graduate from universities and other higher education institutions annually

-Large number of Azerbaijani students studying in the best universities worldwide in the framework of the State Program on Education of Azerbaijani Youth Abroad in 2007-2015

-A large R&D center,the National Academy of Sciences with its 28 research institutes in parallel with 53 universities and 107 VAT schools ensures the scientific and HR component of economic development.

**Perfect Hub**

-Located on the south-eastern border of Europe serving as the natural bridge between Europe and Asia -Trans-Caspian East-West Corridor as a key route connecting two major global economies, China and Europe (4,200 km length,12-14 days transit period)

-Logistics hub for the Caspian region with the biggest airport, seaport and railway network

-Free access to CIS and Georgia markets of 270 million consumers and GDP worth 1.6 trillion USD

-Outreach to 50 countries with almost 50 % of world consumers with in 4-hours-flight-range (medium-haul-flight)

**Fast Developing Structure**

-The most state-of-the-art transport infrastructure in the region

-About 19,000 km of hard-surface roads, 8,000 km of which built and constructed in past 10 years

-6 international airports. Baku operates the largest international airport in the region

-A new international seaport with annual capacity of 10-11.5 million tons of cargo and 50 thousand TEU (to be increased up to21-25 mln tons of cargo and 1mln TEU). A new shipyard and the only one on the Caspian Sea commissioned in 2013.

-Over 2,000 km of operational rail roads. The so-called "Iron Silk Way",Baku-Tbilisi-Kars trunk-railway connecting European and Asian railway systems is under construction.

**New Tourism and Visa Policy**

Azerbaijan is in 39th place among 148 countries in tourism competitiveness indicators, according to Azerbaijan's Center for Economic and Social Development. The country had the world's fastest-developing travel and tourism economy (a 46.1-percent

09 May/June 2019



Azerbaijan

28 MAY

Pakistan
In The World

On May 28, 1918 the first parliamentary democracy in the Muslim East the Azerbaijan Democratic Republic was founded, and July 9th,1919 was the day of the decree of the Azerbaijan Democratic Republic that created Azerbaijan's foreign ministry and laid the foundations for its diplomatic service.

Despite facing grave internal and external

Azerbaijan-The First Parliamentary Democracy in Muslim East

challenges arising from the collapse of an empire, the Azerbaijan Democratic Republic succeeded in setting effective state institutions, upholding the rights of its citizens and gaining the trust of the international community. As stated in the declaration of independence, establishment of friendly relations with all nations, especially neighboring nations and states, was determined as one of the foreign policy priorities of the republic. With better skills and determination, Azerbaijan gradually gained sympathy, support and recognition within the region and beyond.

The first major breakthrough in diplomatic relations came when the parliamentary delegation of Azerbaijan, headed by Alimardan Topchubashov, went to Paris with the main goal to gain international recognition for the Azerbaijan Democratic Republic. Members of the delegation to the Paris Peace Conference impressed foreign dignitaries with respect to their ideas of liberty, rights and justice. Unanimous de-facto recognition of the independence of Azerbaijan was attained and the Azerbaijani mission received an invitation to the Supreme Council of the Paris Peace Conference.

Once recognition had been established, the government's focus shifted towards building a competent diplomatic corps. In 1919, when Azerbaijani diplomacy took its first steps, diplomatic missions of 16 states functioned in Baku, and general consulates of the Azerbaijan Democratic Republic were established in Turkey, Iran, Georgia, Ukraine, Armenia and other countries. Moreover, the Azerbaijani parliament adopted a law on the establishment of diplomatic missions in other countries. The Bolshevik invasion of April 1920 put an end to the independence of the ADR. The establishment of Soviet power in Baku and the overthrow of the Azerbaijan Democratic Republic in 1920 marked the end of an independent Azerbaijani diplomatic service for seven decades, but it did not mean the complete extinction of the nation's diplomatic tradition or experience.

As the successor of the Azerbaijan Democratic Republic, the Republic of Azerbaijan restored its independence in 1991. The difficulties faced by the Azerbaijan Democratic Republic, including Armenia's territorial claims and war against Azerbaijan, geopolitical intrigues, the socio-economic problems engulfed the Republic of Azerbaijan.

The policies pursued later by national leader Heydar Aliyev developed a sense of national identity by reviving our deep historical and cultural memory, as well as by instilling a firm conviction for preserving and strengthening

Ali Alizada
Ambassador of Azerbaijan

our independence and statehood. He was able to conduct negotiations and in 1994 a ceasefire agreement between Armenia and Azerbaijan was signed. Many international organizations adopted similar decisions and resolutions with respect to the territorial integrity of Azerbaijan and demanding the withdrawal of Armenian troops from the occupied lands. The "Contract of the Century" was signed in 1994, which changed the total landscape of the South Caucasus Region in terms of national and regional security, economic integration, political connectivity and above all social advancement. It was a big success of the foreign policy efforts of Azerbaijan.

Today the Republic of Azerbaijan under the leadership of President Ilham Aliyev brings into the reality the aspirations and ideals of the Azerbaijan Democratic Republic. Over the past 15 years, Azerbaijan's economy has grown by 300 percent. Poverty and unemployment have sharply diminished, with measures of both now standing under five percent. Azerbaijan has a very low foreign debt around 17 percent of our GDP and our reserves are bigger than foreign debt five times. In the Doing Business 2019 report, Azerbaijan climbed 32 spots and ranked 25th among 190 countries. This is one of the most successful and greatest achievements in the history of the Doing Business rating.

In 2011, Azerbaijan was elected as a non-permanent member of UN Security Council for the next two years. Within these two years, the country actively participated in the meetings of the Security Council and during Azerbaijan's chairmanship of one month 29 meetings were held and three resolutions were adopted. Due to its independent and balanced foreign policy Azerbaijan has not joined any military-political bloc and merely focused on beneficial cooperation with all countries. Today Azerbaijan as a relatively new independent country plays an important role in building bridges between Europe and Asia, has developed friendly ties with various American, African countries as well.

Strengthening relations with Pakistan was always one of the main priorities of the foreign policy of Azerbaijan. The two countries have always enjoyed friendly and brotherly relations, which originate from our common moral values and are on a steady upward trajectory. Azerbaijan and Pakistan are bound by a strong friendship and strategic partnership. The relations between our two states demonstrate a rare example of solidarity. We are grateful to Pakistan's stand on the Nagorno-Karabakh conflict. Azerbaijan also always stand with and supports Pakistan in all issues and remains committed to further strengthening and deepening relations.

At the moment, diplomatic missions of Azerbaijan are operating in more than 70 countries, as well as in Pakistan. As it marks the 100th anniversary of its founding, Azerbaijan's diplomatic service and the foreign ministry of the country remain a work in progress, shaped by the past and by the country's national leadership but also by a clear recognition that Azerbaijan will play an even larger role in the world and that its diplomats will have a key place in that demanding work.

If the founders of the Azerbaijan Democratic Republic were alive, they would have been proud of today's Republic of Azerbaijan and its diplomatic efforts.

As was said by Heydar Aliyev: "Azerbaijan's independence is eternal and irrevocable"; the diplomatic service of the Republic of Azerbaijan and its employees are always ready to fulfill the goals put forward to them in front of them for the good of restoring internationally recognized territorial integrity, and strengthening the independence, peace and prosperity of Azerbaijan.

The writer is the ambassador of the Republic of Azerbaijan. 09 June 2019

11 June/July 2019

## Əli Əhmədov: Hansısa şübhəli maraqlar naminə ölkənin firavanlığını, gələcəyini qurban verməyə hazır olanlar milli qüvvələrin sərt təpkisinə tuş gəlməlidirlər



"Seçki proseslərinə müdaxilə edilməsi yolu ilə dövlətlərin daxili işlərinə qarışmaq taktikası son dövrlərdə geniş istifadə edilməyə başlayıb. Bu barədə səs-küylü araşdırmalar, yəqin ki, müasir siyasi texnologiyaların istifadəsinin milli dövlətlərin suverenliyi üçün təhlükəli həddə çatmasından xəbər verir. İndi seçki prosesinə xarici müdaxilə təhlükəsindən ABŞ-da, Avropada, Rusiyada ciddi xəbərdarlıqlar edilir, necə deyərlər, həyacan təbili çalınır. Müxalifəti dəstəkləmək, ona təlimlər keçməkdən tutmuş maliyyələşdirməyə qədər çox müxtəlif formalarda seçki prosesinə kobud şəkildə müdaxilə edilməsi halları uzun tarixə malikdir və təəssüflə qeyd olunmalıdır ki, biz dəfələrlə Azərbaycanda onun şahidi olmuşuq, etirazımızı bildirmişik. Müxalifətin keçirdiyi mitinqləri bir çox xarici ölkə səfirlərinin diqqətlə izləməsi, bu aksiyalar barədə əvvəlcədən müfəssəl məlumatlara malik olmaları, hətta digər ölkələrdən xüsusi missiyalı şəxslərin mitinq yerlərində peyda olması dəfələrlə rast gəldiyimiz hallardır. Bu az imiş kimi müxalifət partiyalarının təqdimatı əsasında bir sıra Avropa ölkələrində onlarla insana yaşamaq hüququ verilməsi, onlardan təbliğat məqsədilə vətəndaşı olduğu ölkəyə qarşı istifadə edilməsi də heç kimə sirr deyil. İş o yerə çatıb ki, "siyasi mühacir" statusunu almaq üçün sadəcə bəzi müxalifət partiyaların vəsiqəsinə sahib olmaq kifayətdir. Mətbuatda siyasətlə heç bir əlaqəsi olmayan insanların saxta müxalifət partiyası vəsiqəsi ilə xaricə mühacir etməsi faktları dəfələrlə araşdırma predmeti olmuşdur. Mən bunu bəzi müxalifət partiyası rəhbərlərinin bu işdə də saxtakarlığını ifşa etmək məqsədilə demirəm, sadəcə prosesin nə qədər geniş və iyrənc formalar kəsb etdiyini diqqətə çatdırmaq istəyirəm". Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün "Facebook" səhifəsində paylaşıb.

Əli Əhmədov bildirib ki, hazırda ölkələrin daxili işlərinə qarışmağın, onlara qarşı təbliğat aparmağın, seçki proseslərinə müdaxilə etməyin yeni forması sınaqdan keçirilir. Bunlardan biri internet televiziyalarıdır. Müxalifəti dəstəkləməyin və maliyyələşdirməyin yeni forması kimi internet televiziyalardan və digər texnologiyalardan geniş istifadə edilir. Ən acınacaqlısı da odur ki, ayrı-ayrı yad və təhlükəli maraqlar naminə Azərbaycana qarşı çirkin yalan və böhtan kampaniyası siyasi mühacir kimi sığınacaq verilmiş və təbii ki, satılmış azərbaycanlı müxalifət təmsilçiləri tərəfindən aparılır. Yalnız sadəlövh adamlar düşünə bilər ki, internet TV-lər məhdud maliyyə resursları ilə yaradılır və işlədilir. Xeyr. Sığınacaq tapdığı ölkədə heç bir işlə məşğul olmayan insanın malik olduğu resurslar internet TV işlətmək kimi heç də az vəsait tələb etməyən məşğuliyyətlə adekvat deyil. Sizi əmin edirəm ki, həmin adamlara lazımınca maliyyə dəstəyi edilir. Sözügedən TV sahiblərindən biri təkcə reklamına ayda 10 min dollar pul xərcləyir. Deməli, söhbət Azərbaycana qarşı geniş təbliğat şəbəkəsinin yaradılmasından gedir və bir daha təkrar edirəm ki, bu iş Azərbaycanın müxalifətinin bəzi təmsilçilərinin əli ilə həyata keçirilir.

"Buna görə mən Azərbaycanın bütün sağlam, milli mövqedə dayanan siyasi qüvvələrini Azərbaycana qarşı xarici təbliğata və təsirlərə, ilk növbədə isə siyasi proseslərə və seçkilərə müdaxilələrə qarşı vahid cəbhədə birləşməyə səsləyirəm. İnanıram ki, milli mənafeləri hər şeydən üstün tutan partiyalar siyasi baxışlarından asılı olmayaraq ölkənin suverenliyinə, Azərbaycanın müstəqilliyinə qarşı çıxış edənlərə qəti və layiqli cavab verəcək, maraqlı xarici qüvvələr tərəfindən sirnikdirmə, satınalma, şübhəli maliyyələşdirmə yolu ilə Azərbaycan müxalifətinin səbatsız nümayəndələrinin Azərbaycan dövlətinə qarşı çıxmasına imkan verməyəcək.

Azərbaycan müstəqillik illərində möhtəşəm inkişaf yolu keçib, güclənib, qüdrətlənib, müasirləşib, dünyada parlaq gələcəyi olan ölkə kimi tanınıb. İnsanlar əmin-amanlıq şəraitində yaşayır, özünün, ailəsinin, övladlarının gələcəyindən nigaran deyil, ən başlıcası isə həyatından məmnundurlar. Hansısa şübhəli maraqlar naminə bu gözəl ölkənin firavanlığına, gələcəyinə, insanlarına problem yaratmağa, xalqın suverenliyini qurban verməyə hazır olanlar xalqın və onun fəal siyasi hissəsi olan milli qüvvələrin sərt təpkisinə tuş gəlməlidirlər"-deyə, YAP Sədrinin müavini vurğulayıb.

## Müdafiə Nazirliyinin rəhbərliyi axtarış əməliyyatlarında fəal iştirak edənlərə təşəkkürünü bildirib



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Hava Qüvvələrinin "MiQ-29" təyyarəsinin qəzaya uğradığı ilk gündən pilotun nəşi və təyyarənin qalıqlarının axtarışlarında fəal iştirak edən aidiyyəti qurumların nümayəndələrinə təşəkkürünü bildirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarış əməliyyatlarına Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri ilə birgə Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin xilasetmə qrupunun üzvləri, Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin dalğıcları və katerləri, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Vaqif Cəfərov" kran, "Nefteqaz-58" təchizat-yedək, "Məmməd Süleymanov" elmi-tədqiqat gəmilərinin heyətləri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dalğıcları cəlb olunublar.

## Eldar İbrahimov: Aqrar Sığorta Fondunun yaradılması böyük əhəmiyyət kəsb edir



"Azərbaycanda aqrar sahənin inkişafı istiqamətində mühüm addımlar atılır. Bu ilin altı ayı ərzində bu sahədə 13 faiz artımın baş verməsi bunu təsdiq edir. Xüsusilə bitkiçiliyin 25 faiz artması da təqdirəlayiq haldır. Prezident İlham Əliyevin söylədiyi kimi, bu sahəyə qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir". Bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib.

E.İbrahimov bildirib ki, kənd təsərrüfatının geniş potensialından daha səmərəli istifadə etmək məqsədilə aqrar sektorda sistemli islahatlar həyata keçirilir. Kənd təsərrüfatında yeni islahatlar kursunun məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün intitusional potensialın gücləndirilməsindən, aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsindən, biznes mühitinin yaxşılaşdırılmasından, kənd təsərrüfatı məhsullarının istehsal imkanlarının artırılmasından, bazar infrastrukturunun təkmilləşdirilməsindən və istehsalçıların bazara çıxışının asanlaşdırılmasını təmin etməkdən ibarətdir.

Komitə sədri deyib ki, bu məqsədlər üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsi, regional ixtisaslaşdırma aparılması, aqrar sahəyə investisiya qoyuluşlarının təşviq edilməsi, informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması, aqrar sığortanın tətbiqi ilə bağlı hüquqi və institusional tədbirlər görülməsi, ixracın çeşidinin artırılması və bazarların diversifikasiyası və s. addımların atılması nəzərdə tutulur. Bütövlükdə, aqrar sektorun maddi-texniki bazasının ardıcıl şəkildə möhkəmləndirilməsinə, yeni yanaşmaların tətbiqinə "yaşıl işıq" yandırılmasına, həmçinin bu sahədə aparılan institusional islahatlara istinadən deyə bilərik ki, respublikamızda məhsuldarlığın artırılmasına hesablanan yeni bir kənd təsərrüfatı sistemi formalaşdırılır.

"Şübhə yoxdur ki, həyata keçirilən məqsədyönlü tədbirlər və islahatlar perspektivdə milli iqtisadiyyatımızda aqrar sektorun mövqeyinin möhkəmlənməsini təmin edəcək. Aqrar sektorda startı verilən yeni islahatlar kursunun əsas hədəflərindən biri ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün institusional potensialın gücləndirilməsindən ibarətdir. Qlobal risklərin artdığı bir şəraitdə Azərbaycan əhalinin ərzaq təhlükəsizliyinə ölkənin milli təhlükəsizliyinin vacib bir komponenti kimi daim böyük önəm verir. Son 16 ildə respublikamızda ərzaq təminatının möhkəmləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib. Öz növbəsində bu istiqamətdə həyata keçirilən tədbirlər artıq öz müsbət nəticələrini verir. Respublikamızda bir sıra pozisiyalar üzrə daxili ərzaq tələbatının 100 faiz həcmində yerli istehsal hesabına ödənilməsi böyük nailiyyətdir. Hazırda ölkəmizdə meyvə-tərəvəzə olan daxili tələbat tam həcmdə yerli istehsal hesabına təmin edilir. Hazırda yerli kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı əhəmiyyətli dərəcədə artmaqdadır. Bu da respublikamıza valyuta gətirir ki, iqtisadiyyatımızı daha da gücləndirir"-deyə komitə sədri vurğulayıb.

E.İbrahimov "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanının da böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, bu sənəd aqrar sahənin inkişafında mühüm rol oynayacaq: ""Aqrar sığorta haqqında" qanun Azərbaycan Respublikasında aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Dövlət başçısının imzaladığı Fərmanda qeyd olunduğu kimi bu qanununun 8.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən "Aqrar Sığorta Fondu" qeyri-kommersiya hüquqi şəxsi yaradılacaq. Hesab edirəm ki, bu fondun yaradılması çox böyük əhəmiyyət kəsb edir. Belə bir fondun fəaliyyət göstərməsi fermerlərin, bütövlükdə aqrar sahədə çalışan insanların, istehsalçıların maraqlarına tam uyğundur. Buna görə də, onlar aqrar sığortanın imkanlarından faydalanmalıdırlar"-deyə, komitə sədri vurğulayıb.

## Ermənistanda etirazçılar parlament binasını mühasirəyə alıblar!



Ermənistanda etirazlar səngimir. Narazı kütlə parlamenti mühasirəyə alıb. Etirazçılarla polis arasında qarşıdurma olub, saxlanılanlar var. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, parlamenti mühasirəyə alan əhali Nikol Paşinyan ilə görüşmək istədiklərini bildiriblər. Onlar qeyd ediblər ki, İcəvandakı, Gümrüdəki problemlərin nə vaxt həll olunacağını baş nazirdən öyrənmək istəyirlər. Etirazçıların fikrincə, əvvəl olduğu kimi bu gün də ölkə talanır. Ölkədəki binaların 80 faizi qəzalı vəziyyətdədir. Bu səbəbdən ailələrin böyük əksəriyyəti gecəni küçələrdə keçirirlər. Bundan başqa Ermənistanda işsizlər ordusunun sayı 47 min nəfərdən çoxdur. 50 mindən çox insan ölkəni tərk edib. Aksiya iştirakçıları N.Paşinyana xəbərdarlıq edərək bildiriblər ki, problemlər öz həllini tapmasa parlamentin qarşısında narazı kütlənin sayı artacaq. Qeyd edək ki, etirazçılar paytaxt Yerevanın əsas yollarını bağlayıblar. Hadisə yerinə daxili qoşun qüvvələri cəlb olunub. İnsident nəticəsində 30-a yaxın etirazçı saxlanılıb.

## "Məhsəti" operasının premyerası olacaq

Sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Pikə Axundovanın "Məhsəti" operasının premyerası olacaq. AZƏRTAC xəbər verir ki, səhnə əsəri Ü. Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində göstəriləcək. Operada baş rolu İnarə Babayeva ifa edəcək. Səhnə əsəri AzTV-nin Niyazi adına Simfonik Orkestri və C.Cahangirov adına Xoru tərəfindən müşayiət olunacaq.

# Ətraf mühitin mühafizəsi sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Yeni Azərbaycan Partiyasının birgə layihələri davamlıdır

*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyevin yap.org.az-a müsahibəsi*

***- Firdovsi müəllim, öncə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Yeni Azərbaycan Partiyası arasında imzalanmış birgə Fəaliyyət proqramının əhəmiyyəti və bu çərçivədə nəzərdə tutulan tədbirlər barədə fikirlərinizi bilmək istərdik...***

- İnsanların sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsi və təbii sərvətlərdən səmərəli istifadəsi ölkədə aparılan sosial islahatların mühüm tərkib hissələrindən biridir. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələrlə yanaşı, ətraf mühitin mühafizəsi sahəsinə göstərdiyi diqqət nəticəsində ölkəmizdə yeni ekoloji siyasət formalaşmışdır. Ümummilli Liderin tövsiyələri rəhbər tutularaq müstəqil Azərbaycanın zəngin təbiətini, təbii sərvətlərini qorumaq və bərpa etmək istiqamətində işlər bu gün də uğurla davam etdirilir, yeni-yeni layihələr həyata keçirilir, ekoloji problemlərin həllinə cəmiyyətin, yerli və beynəlxalq təşkilatların diqqətinin daha da artırılması istiqamətində maarifləndirici tədbirlər reallaşdırılır. Azərbaycanın uğurlu gələcəyinə hesablanmış siyasətin son 16 ilə yaxın dövrdə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilməsi yeni-yeni hədəfləri stimullaşdırır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qarşısında qoyulmuş vəzifələr təbiətin mühafizəsi, keçmişdən miras qalmış ekoloji problemlərin aradan qaldırılması və təbii sərvətlərdən səmərəli istifadənin tənzimlənməsindən ibarətdir. Ətraf mühitin mühafizəsi elə bir sahədir ki, burada ictimaiyyətin geniş təbəqəsinin iştirakı faydalı hesab olunur. Buna görə də biz çalışırıq ki, bu sahədə dövlət qurumları, özəl sektorla yanaşı, ictimaiyyət nümayəndələri ilə də əməkdaşlıq edək.

Məlum olduğu kimi, 2019-cu il 5 iyul tarixində ətraf mühitin mühafizəsi və ekoloji layihələrin həyata keçirilməsi istiqamətində birgə əməkdaşlıq məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Yeni Azərbaycan Partiyası arasında birgə Fəaliyyət proqramı imzalanmışdır.

Proqram ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlərdə ictimaiyyətin geniş iştirakı, əhalinin maarifləndirilməsi və məlumatlılığın artırılması, insanlarda təbiətə qarşı humanizm ideyalarının aşılanması məqsədini daşıyır. Birgə Fəaliyyət proqramında yaşıllaşdırma tədbirlərinin keçirilməsi, gənclər üçün "Yay məktəbi"nin təşkili, atmosfer havasının mühafizəsi, tullantıların idarə olunması, müxtəlif mövzularda müsabiqələrin keçirilməsi, yeniyetmə və gənclər arasında maarifləndirmə tədbirlərinin aparılması, ekoloji təbliğat yönümlü tədbirlərin təşkili, mühafizə olunan təbiət ərazilərinin tanıdılması, gənclər arasında intellektual yarışların keçirilməsi və s. məsələlər öz əksini tapıb. Ümumiyyətlə, ətraf mühitin mühafizəsi sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Yeni Azərbaycan Partiyası arasında mövcud əməkdaşlıq müxtəlif layihələr çərçivəsində uğurla davam etdirilir. Belə ki, 2018-ci ildə Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə 700 min ağacın əkilməsi ilə bağlı geniş bir layihə həyata keçirildi. Bu kimi layihələr ümumilikdə cəmiyyətə bir çağırış kimi dəyərləndirilməlidir. Hər bir Azərbaycan vətəndaşı, bu gün nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının 740 mindən artıq üzvlərinin hər biri paytaxt və bölgələrdə reallaşdırılan bu təşəbbüslərə öz töhfəsini verməli, ətraf mühitin qorunmasına, ekoloji tarazlığın qorunmasına dəstək olmalıdırlar.



***- Fəaliyyət proqramın imzalandığı vaxtdan ötən qısa müddətdə hansı layihələr həyata keçirilib?***

- Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında birgə Fəaliyyət proqramının imzalanmasından bir aydan artıq müddət keçməsinə baxmayaraq bir artıq sənəddə nəzərdə tutulmuş iki əhəmiyyətli layihəni birlikdə həyata keçirmişik. Xüsusilə mətbuat nümayəndələrinə minnətdarlığımı bildirmək istərdim ki, onlar bu layihələri işıqlandırmaqla yanaşı, özləri də prosesin fəal işştirakçıları oldular. Fəaliyyət proqramına uyğun olaraq iyulun 29-dan avqustun 2-dək "Gənc nəslin ətraf mühitin mühafizəsində rolu" mövzusunda "Yay məktəbi" təşkil olundu. Tədbir ətraf mühit və təbii sərvətlərin milli dəyər kimi gələcək nəsillər üçün qorunub saxlanılması ideyalarının gənclər arasında təbliği, ekoloji maarifləndirmənin, ekoloji təhsilin və təbiətə humanist münasibətin təşviqi, həmçinin yüksək ixtisaslı kadr heyətinin formalaşdırılması məqsədini daşıyırdı. "Yay məktəbi" çərçivəsində gənclər qarşısında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin peşəkar mütəxəssisləri tərəfindən ətraf mühitin mühafizəsində gənclərin rolu, ölkəmizin təbii sərvətləri, ətraf mühitin mühafizəsi istiqamətində görülmüş işlər, xüsusi mühafizə olunan təbiət əraziləri, yaşıllıqların mühafizəsi, iqlim dəyişmələri, dayanıqlı inkişaf məqsədləri, su ehtiyatlarının və tullantıların idarə olunması, yaşıl iqtisadiyyat, ətraf mühitin monitorinqi və s. mövzularda məruzələr edildi, zəngin məlumat əldə etmələrinə şərait yaradıldı. Eyni zamanda, "Yay məktəbi"nin iştirakçıları Dövlət Geologiya Muzeyinə və Abşeron Milli Parkına ekskursiya etmiş, hidrometeoroloji proqnozların hazırlandığı və ətraf mühit komponentlərinin analizlərinin aparıldığı laboratoriyanın fəaliyyəti ilə tanış olmuşlar. Bundan əlavə, 12 avqust "Xəzər günü" ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Buzovna çimərliyi ərazisində dəniz sahilinin plastik və digər tullantılardan təmizlənməsi məqsədilə "Xəzərin mühafizəsində birik, birlikdəyik" devizi altında iməcilik keçirildi. Nazirliyin əməkdaşlarının, YAP nümayəndələrinin, Milli Məclisin deputatlarının, ziyalıların, tanınmış mədəniyyət və incəsənət xadimlərinin, könüllülərin iştirakı ilə keçirilən aksiyada 10 hektar ərazi tullantılardan təmizləndi, tullantılar çeşidlənərək aidiyyəti üzrə daşındı. Tədbirin keçirilməsində məqsəd Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaq və bu sahədə ictimaiyyətlə əməkdaşlığı gücləndirməkdir və bu çərçivədə Xəzər dənizinin Azərbaycana aid şimaldan cənuba qədər sahil zolağı boyunca bu cür təmizlik aksiyaları keçirilib.

***- Proqram çərçivəsində növbəti hansı tədbirlərin həyata keçirilməsi planlaşdırılır?***

- Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında imzalanmış birgə Fəaliyyət proqramı əhatəlidir. Bu sənəddə nəzərdə tutulmuş tədbirlərin bütün respublika üzrə, ictimaiyyətin bütün nümayəndələrinin iştirakı ilə həyata keçirilməsini planlaşdırırıq. Proqramda əkin mövsümləri dövründə yaşıllıq aksiyalarının keçirilməsi, milli parkların və ölkəmizin digər füsunkar təbiət ərazilərimizin tanıdılması, atmosfer havasının mühafizəsinin təbliği məqsədilə veloyürüşün, plastik mənşəli məhsullardan istifadənin azaldılması istiqamətində təbliğat xarakterli tədbirlərin, orta və ali təhsil müəssisələrində şagird və tələbələrlə görüşlərin, yeniyetmə və gənclər arasında yazı müsabiqələrinin və intellektual yarışların təşkili və s. tədbirlər nəzərdə tutulur. Ümumiyyətlə, proqram çərçivəsində ətraf mühitin mühafizəsi sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində Yeni Azərbaycan Partiyasının üzvü olan hər bir nazirlik əməkdaşının məsuliyyəti daha böyükdür. Ekologiya və Təbii Sərvətlər Nazirliyində ümumilikdə 5 mindən üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının ilk ərazi təşkilatı fəaliyyət göstərir, sıralarını kəmiyyət və keyfiyyət baxımından günbəgün genişləndirir. Nazirliyin hər bir əməkdaşı və partiya üzvü Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək, həyata keçirilən siyasətə dəstəklərini üzərilərinə düşən vəzifələri lazımi səviyyədə yerinə yetirmələri, Azərbaycanın davamlı inkişafına töhfə vermək üçün göstərdikləri səyləri daha da artırmaları ilə nümayiş etdirirlər.

***- Firdovsi müəllim, ölkəmizdə həyata keçirilən tədbirlərdə gənclərimizin fəallığı xüsusilə diqqət çəkir. Dövlətimizin başçısı İlham Əliyev daim bildirir ki, gənclərin potensial imkanlarından səmərəli istifadə etmək əsasdır. Ətraf mühitin mühafizəsi sahəsində gənclərə tövsiyələriniz...***

- Ölkədə ətraf mühitin mühafizəsi tədbirlərinin səmərəliliyinin artırılması üçün gənclər arasında əlaqələndirilmiş kütləvi maarifləndirmə sisteminin yaradılmasına, onlara təbiətdən səmərəli istifadə olunması vərdişlərinin aşılanmasına böyük ehtiyac var. Azərbaycanda gənc nəslin ekoloji layihələrin həyata keçirilməsində fəal iştirakı üçün bütün imkanlar mövcuddur. Gənclər arasında maarifləndirmə tədbirlərinin aparılması, ekoloji təbliğat yönümlü tədbirlərin keçirilməsi, yaşıllaşdırma aksiyaları, mühafizə olunan təbiət ərazilərinin tanıdılması, gənclər üçün "Yay məktəbi"nin təşkili, gənclər arasında intellektual yarışmaların keçirilməsi istiqamətində bundan sonra birgə addımlar atılacaq.

Ətraf mühitə və təbii sərvətlərə daim həssaslıqla yanaşılması, bu istiqamətdə dünyanın c?ag?ırış?larına uyg?unlas?maq, cəmiyyət və təbiət münasibətlərinin sağlam fikir əsasında formalaşması məqsədilə əsas məsələlərdən biri də əhalinin diqqətini ətraf mühitin mühafizəsi məsələlərinə yönəltməkdir ki, bu istiqamətdə maarifləndirici tədbirlərin miqyası daha da genişləndiriləcək. Sevindirici haldır ki, ekoloji durumun yaxşılaşdırılması ilə bağlı məsələlərdə ictimai qınaq mexanizmi formalaşır, vətəndaş mövqeyi nümayiş etdirilir və insanların təbiətlə münasibətlərində müsbət dəyişikliklər öz bəhrəsini verir. Həyata keçirdiyimiz tədbirlərin cəmiyyətə bir çağırış, mesaj kimi dəyərləndirilən mövzuları da hədəflərimizə işıq salır. "Birik, birlikdəyik" deyib başladığımız uğurlu yolu inamla davam etdirək, ətraf mühitin qorunmasına dəstək olaq, sağlamlığımızın keşiyində dayanaq.

## Yeddi ayda Azərbaycana 7,4 faiz çox əcnəbi gəlib



Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən cari ilin yanvar-iyul aylarında Azərbaycana dünyanın 187 ölkəsindən 1 milyon 777,4 min və ya 2018-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 7,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ölkəyə gələnlərin 30,6 faizi Rusiya, 22,8 faizi Gürcüstan, 9,9 faizi Türkiyə, 7,2 faizi İran, 3,6 faizi Səudiyyə Ərəbistanı, 2,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, hər birindən 1,5 faiz olmaqla Türkmənistan və İraqdandır. Həmçinin gələnlərin hər birindən 1,4 faizi olmaqla Qazaxıstan, İsrail və Pakistan, 1,3 faizi Böyük Britaniya, 11,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 66,8 faizini kişilər, 33,2 faizini isə qadınlar təşkil edib.

Ümumiyyətlə, ölkəmizə yeddi ayda gələnlərin sayında daha çox artım Misir (83,2 faiz), Hindistan (80,6 faiz), Türkmənistan (78,5 faiz), Çin (74,3 faiz), Səudiyyə Ərəbistanı (48,8 faiz), Macarıstan (48,1 faiz), Böyük Britaniya (30,9 faiz), Cənubi Koreya (30,9 faiz), Yaponiya (29,3 faiz), Polşa (27,7 faiz), Kanada (25,2 faiz), Almaniya (25,1 faiz) və Gürcüstan (23,4 faiz) vətəndaşları arasında qeydə alınıb. Yanvar-iyul aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 26,3 faiz artaraq 83,2 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 6,7 faiz artaraq 655,1 min nəfər olub.

## Bakı Metropoliteni "Sahil" stansiyasında eskalatorların dayanması məsələsinə aydınlıq gətirib

Metropolitenə gələn elektrik xətlərində gərginliyin düşməsi "Sahil" metro stansiyasının eskalatorları və işıqlanma sistemində əksini tapıb. "Bakı Metropoliteni" QSC-dən AZƏRTAC-a bildirilib ki, sərnişin təhlükəsizliyi tələblərinə ciddi əməl olunmaqla qısa müddət ərzində eskalatorların fəaliyyəti bərpa olunub. Sərnişinlər arasında xəsarət olmayıb. Gərginliyin düşməsi qatarların hərəkətinə ciddi təsir göstərməyib.

# Əli Kərimli, bu təfəkkürlə səni heç “Relax”a ofisiant da götürmək olmaz...



*Vüqar Rəhimzadə, “İki sahil” qəzetinin baş redaktoru*

***Hər gün medianı və sosial şəbəkələri izləyib neqativ bir hadisə tapıb onu sevincək şəkildə siyasiləşdirən və bununla da guya müxalifətçilik edən AXCP sədri Əli Kərimli yenidən özünü ifşa edib. Lerikdə yerləşən “Relax” istirahət mərkəzində baş vermiş hadisə ilə bağlı “facebook” səhifəsində tələm-tələsik status yazan Əli Kərimli növbəti dəfə isbatladı ki, o, nəinki siyasətçi deyil, həm də çox pis bloqgerdir. Çünki başqası haqqında fikir yürüdən bir siyasətçi öncə öz keçmişinə, siyasi fəaliyyətinə nəzər yetirməli, ondan sonra digərinə irad tutmalıdır. Əgər 26 il öncə AXC-Müsavat hakimiyyəti illərində dövlət katibi postunu tutmuş Əli Kərimli o zaman ölkədəki dərəbəyliyin, korrupsiyanın, özbaşınalığın yaddan çıxdığını düşünürsə və bu gün guya “Azərbaycanda qanunun aliliyi yoxdur” deyirsə, o halda biz ona bəzi xatırlatmaları etməliyik.***

Məhz Əli Kərimlinin də təmsil olunduğu AXC-Müsavat iqtidarı başdan-başa korrupsiya içində olub. 1993-cü il mayın 25-də Prezident Aparatında hüquq mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə o zamankı Prezident Əbülfəz Elçibəy üzünü məmurlara tutaraq deyirdi: “Rüşvət alanda milyonlarla dollar alırsınız, alırsan, heç olmasa 100 minlərlə al... Yarım milyonunu alırsan, sonra da deyirsən ki, təqsiri yoxdur, buraxırsan, çıxır gedir”.

O zaman Ali Məhkəmənin sədri olmuş Tahir Kərimlinin həmin müşavirədə dediklərini də Əli Kərimlinin nəzərinə çatdıraq: “Vəziyyət bütün sahələrdə ağırdır. Ağırlıq ona görədir ki, quldurluq, soyğunçuluq, rüşvətxorluq cinayətləri 10 illə müqayisədə 1992-ci ildə 4 dəfə artıb... Bəli, rüşvətxorluq respublikanı başına alıb gedir... mən axı hakimə necə deyə bilərəm ki, milyoneri işə bərpa edirsən, qayıdıb mənə deyər ki, Pənah Hüseynov milyarderləri bərpa edir. Nazirlər Soveti bu gün milyarderlərdən ibarətdir. O adamlar ki cinayətkardır...., onlar bu gün Nazirlər Sovetinə, Dövlət Aparatına yığışıblar...”.

Bu sözləri isə sən, Əli Kərimli həmin müşavirədə söyləmisən: “Respublikada bütövlükdə nəinki qanunçuluq, hətta icra intizamı xeyli dərəcədə aşağıdır. Prezident fərman və sərəncamlarının icrası qənaətbəxş səviyyədə deyil. Bəzən elə ab-hava yaradırıq ki, qanunsuzluq, özbaşınalıq, hakimiyyətsizlik demokratiya ilə eyniləşdirilir. Çox təəssüf ki, hətta fərmanlar icra olunduğu təqdirdə belə istənilən nəticəni vermir. Qarşıya qoyulan nəticəyə nail olunmur”.

Məhz sən dövlət katibi olduğun siyasi hakimiyyətin fəaliyyətini yararsız adlandırırsan və qeyd edirsən: “Xalqın böyük narazılığına səbəb olan bir qüsurumuz da iqtisadi sahədə cinayətkarlığın baş alıb getməsidir. İqtisadi sahədə cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, həmin vəsaitin xaricdə saxlanılması və bir sözlə, dövlət əmlakının talan edilməsi adicə hala çevrilib... İqtisadiyyatın bütün sahələrində cinayətkarlıq iri miqyas alıb və hətta ayrı-ayrı cinayət faktları göstərir ki, hüquq mühafizə orqanlarının da müəyyən vəzifəli şəxsləri daxil olmaqla, artıq dövlət orqanlarının daxilində müəyyən cinayətkar təbəqələr formalaşmaqdadır”.

Bəli, birbaşa dövlət səviyyəsində məmurların cinayətindən də danışmalı olsaq, o zaman yenidən Əli Kərimlinin təmsil olunduğu AXC-Müsavat hakimiyyəti illərində baş verən qudurğanlıqlara baxmalıyıq. Buyurun, hələ o zaman daxili işlər naziri İsgəndər Həmidov bir dəfə “İstiqlal” qəzetinin baş redaktoru Zərdüşt Əlizadəni kabinetində döyüb, külqabını başına çırpmışdı. Prezident Əbülfəz Elçibəy nə qədər təkid etsə də, İsgəndər Həmidov jurnalistdən üzr istəmədi. Nazirə gücü çatmayan Əbülfəz Elçibəy əlacsız qalıb Zərdüşt Əlizadədən özü üzr istədi. Hətta İsgəndər Həmidov qəzetin nömrəsini ona yedirtmişdi.

İsgəndər Həmidovla yanaşı, AXC-Müsavat hakimiyyətinin daha bir harınlamış nümayəndəsi Surət Hüseynov idi. Yevlaxda Yunun ilkin emalı fabrikinin rəhbəri olmuş Surət Hüseynov o qədər pul toplamışdı ki, başına böyük bir silahlı dəstə yığmışdı. Heç kəslə hesablaşmırdı, AXC-Müsavat hakimiyyəti ona düşmən münasibət bəsləsə də, qorxudan nəinki cəzalandıra bilməmişdi, əksinə ona Milli Qəhrəman adı da vermişdi. Lakin sonda yenidən çanaq o zamankı hakimiyyətin başında çatladı.

Buyur, Əli Kərimli, özbaşınalıq, dərəbəylik, qanunsuzluq deyirsən, hamısı sənin dövlət katibi olduğun AXC-Müsavat hakimiyyəti dövründə müşahidə olunub. Deyirəm, ictimai qınaq olmasa, İsgəndər Həmidovun, Rəhim Qazıyevin özbaşınalığını, Leyla Yunusun ermənilərə işləməyini də indiki hakimiyyətin ayağına yazardın...

Hətta heç zaman dilinə gətirmək istəmədiyin bir faktı da açıqlayaq ki, onu da ictimaiyyət bilsin. Necə olur ki, həyat yoldaşın Samara Seyidova AXC-Müsavat hakimiyyəti dövründə Prezident Aparatında, Azərbaycan Respublikası Prezidenti yanında əfv məsələləri üzrə şöbənin rəhbəri vəzifəsində çalışırdı. Sən, Əli Kərimli isə Prezident Aparatında Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri (1992), Azərbaycan Respublikasının Dövlət katibi (1993) postlarında çalışırdın. Bir evdən eyni

iş yerinə ayrı-ayrı xidməti maşınlarda gəlirdiniz. Bəs o vaxt qurduqlarınız “ailə hakimiyyəti” deyildi, bəs nə idi?

Bu cür faktları uzatmaq və çoxsaylı ifşaedici məlumatlar sadalamaq olar. Lakin tövsiyəm ondan ibarətdir ki, hansısa mövzuda danışmaq istəyərkən öncə keçmişinə, ləkəli məmur tarixinə bax, ondan sonra danış. Əlbəttə ki, bu təfəkkür və düşüncə ilə səni heç “Relax”a ofisiant da götürmək olmaz...

# Əli Kərimlinin dövlətçilik və hüquqi təfəkkürü məntiqsiz və natamamdır



*Hikmət BABAOĞLU*
*Millət vəkili*

***Azərbaycanda radikal müxalifətin milli dövlətçilik institutlarına nifrəti o həddə çatıb ki, ölkədə hüquqi sistemin öz funksiyasını yerinə yetirmə proseduru da xüsusi siyasi hadisə kimi qiymətləndirilir, qarayaxma predmetinə çevrilir. Bu, müxalifətçilik deyil, milli dövlətlə, onun funksional idarəetmə aparatı ilə düşmənçilikdir.***

Hər bir demokratik cəmiyyətdə ictimai münasibətlərin hüquqla tənzimlənməsi sadəcə labüddür. Azərbaycanda da hamı qanun qarşısında bərabər olduğu üçün kimin hansı vəzifədə olmasından, hansı xüsusi statusu daşımasından asılı olmayaraq törətdiyi əmələ görə cəzalandırılması ənənəsi var və bu, hüquqi dövlətin tələbidir.

Əli Kərimli isə dövlətə ədaləti təmin edən sosial institut kimi deyil, özlərinin hakimiyyəti dövründə olduğu kimi, şəxsi cəzalandırma vasitəsi kimi baxdığına görə ona elə gəlir ki, indi də elədir və qanunu pozan yüksək çinli dövlət məmurları yalnız ona görə cəzalandırılır ki, onlar kiminsə mənafelərinə toxunub. Nə etmək olar, axı “aşıq gördüyünü çağırar”.

Əli Kərimli və onun təmsil olunduğu siyasi komanda hakimiyyətdə olanda dövlətin güc strukturları yalnız ona rəhbərlik edən şəxslərin və onların yaxın əhatəsinin cəza aləti kimi istifadə edilib. Ona görə də Əli Kərimli hələ də elə düşünür ki, indi də vəziyyət onların dövründə olan kimidir. Bu cür yanaşma Əli Kərimlidə dövlətçilik və hüquqi təfəkkürün natamam olması ilə əlaqədardır.

Məsələn o dövrdə daxili işlər naziri olan İsgəndər Həmidov bu güc strukturunun imkanlarından ona xoş gəlməyən jurnalistləri döymək, avtomobilin yük yerinə atmaq, yazdığı yazını yedirtmək, başqasının mühafizəçisini güllələtdirmək, televiziyalarda müxalif fikir səsləndirənlərə basqın etmək üçün istifadə edirdi.

Baş nazir Pənah Hüseynov ölkənin bütün əmlakını özününki hesab edir, hətta arxeoloji qazıntılar zamanı tapılan qızıl sikkələri belə özünün şəxsi malı kimi görürdü.

Rəhim Qazıyev, Leyla Yunus və s. digərləri xaricdəki öz başbilənlərindən direktivlər alır, AXC-”Müsavat” hakimiyyətini ümumiyyətlə qəbul etmirdilər. Ancaq indi Əli Kərimlinin də etiraf etdiyi kimi Daxili İşlər Nazirliyinin yüksək rütbəli məmuru da, millət vəkilinin yaxını da və ümumiyyətlə kimliyindən asılı olmayaraq hər bir vətəndaş törətdiyi qeyri-qanuni əmələ görə cəzalandırılır. Bu, belə də olmalıdır. Əli Kərimli həqiqətən müxalifətçi olsaydı bunları təqdir etməli, Azərbaycanda hüquqi sistemin işini yüksək qiymətləndirməli idi. Ancaq onun siyasi və hüquqi təfəkkürü elə təqribən “Relaks” istirahət mərkəzində çalışan bəzi “işçilərin” təfəkkürü səviyyəsində olduğu üçün, hüquqi mexanizmin qanunu pozanlara tətbiqini də elə “Relaks”a qanunu vəzifələrini icra etməyə gəlmiş dövlət məmurlarına həmin “işçilər” tərəfindən göstərilən münasibət səviyyəsində qiymətləndirir və şərh edir. Belə olan halda isə “Relaks” istirahət mərkəzində qanunun tətbiqinə qarşı çıxanlarla Əli Kərimli arasında heç bir fərq yoxdur.

# Sevinc Hüseynova: Sosial sahədə atılan addımlar ciddi nəticələr verməkdədir



“Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər uğurla davam etdirilir. Prezident İlham Əliyev bu ilin əvvəlindən əhalinin rifahının daha da yüksəldilməsi istiqamətində bir sıra fərman və sərəncamlar imzalayıb. Bu sənədlər ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin bariz nümunələridir”. Bu fikirləri Milli Məclisin deputatı Sevinc Hüseynova deyib.

S.Hüseynova bildirib ki, dövlət başçısının müəyyənləşdirdiyi strateji kursa uyğun olaraq ölkəmizin uğurlu sosial dövlət modeli formalaşdırılıb. Onun sözlərinə görə, respublikamızda əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasəti ardıcıl xarakter daşıyır.

“Ölkəmizdə 2019-cu ilin əvvəlindən bəri dövlət başçısı bilavasitə ölkə vətəndaşlarının həyat səviyyəsinin daha da yüksəldilməsinə, onları narahat edən müxtəlif sosial məsələlərin həllinə yönələn çoxlu sayda Fərman və sərəncamlar imzalayıb. Biz bu sırada dövlət başçısının imzaladığı sənədlər əsasında müvafiq kateqoriyadan olan şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsini, problemli kreditlər məsələsinin həllini tapmasını, bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsini, əməkhaqlarının, pensiyaların, tələbə təqaüdlərinin, müavinətlərin artırılmasını və digər belə tədbirləri qeyd edə bilərik. Sosial sferada atılan bu kimi addımlar bilavasitə insanların rifah halının yaxşılaşdırılmasına, onların gəlir imkanlarının artırılmasına hesablanıb. Bütövlükdə deyə bilərik ki, 2019-cu ilin əvvəlindən bəri Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları 4 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu”-deyə, deputat qeyd edib.

# “İqtisadi inkişafın yaratdığı imkanlardan cəmiyyətin bütün təbəqələri bəhrələnir”



“Cari ilin əvvəlindən respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahat tədbirləri nəticəsində milli iqtisadiyyatımızda son illərin ən yaxşı göstəricilərinə nail olunub. Təkcə 2019-cu ilin birinci yarısında büdcə daxilolmaları 400 milyon manat civarında olub”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib. Cari ildə büdcə gəlirlərinin daha artıq məbləğdə təmin edilməsinin sosial sahədə islahatların dərinləşməsi üçün münbit şərait yaratdığını deyən deputat söyləyib ki, qazanılan əlavə gəlirlər ilk növbədə ölkə vətəndaşlarının sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına, onların gəlir imkanlarının artırılmasına yönəldilir: “Ölkənin iqtisadi qüdrətinin artırılması və sosial məsələlərin adekvat şəkildə həll edilməsi istiqamətində görülən işlər paralel şəkildə həyata keçirilir və bir-birini tamamlayır. Bu da Azərbaycanı unikal sosial-iqtisadi inkişaf modelinə malik ölkə kimi səciyyələndirir. Bütövlükdə, respublikamızda iqtisadi inkişafın yaratdığı imkanlardan, milli gəlirdən cəmiyyətin bütün təbəqələri bəhrələnirlər”.

R. Əliyev qeyd edib ki, iqtisadi sahədə əldə edilən mötəbər uğurların sosial sferaya transformasiyası ölkə başçısının bəyan etdiyi sosial iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən vətəndaşların sosial təminatını əhəmiyyətli dərəcədə möhkəmləndirib: “2019-cu ilin əvvəlindən aktiv fazaya daxil olan sosial islahatlar paketi nəticəsində ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılması Azərbaycan dövlətində aparılan sosial siyasətin alternativsiz olduğunun təsdiqidir”.

***Nailə Məhərrəmova***

# “Azərbaycanda turizm böyük vüsətlə inkişaf edir”

***Tarix boyu Azərbaycan məşhur səyyahların, dünyaca görkəmli şəxslərin marağını cəlb edib. Onlar ölkəmizin qədim, minilliklərə söykənən zəngin mədəniyyətini, coğrafi mövqeyini, gözəlliyini “Səfərnamə”lərində böyük vurğunluqla əks etdiriblər. Hələ XIII əsrin əvvəllərində flamand səyyahı, eyni zamanda rahib Vilhelm Rubruk Dərbəndə gəlmiş və bu yerlərdə böyük bir şəhər salındığını göstərmişdir. Maraqlıdır ki, I əsrdə Domisian adlı Roma imperatorunun XII legionu Qobustanda olmuşdur. Qayaüstü yazılar da bunu deməyə əsas verir. 1858-ci ildə isə məşhur fransız yazıçısı Aleksandr Düma öz qeydlərində Bakıda Yanar dağdan heyrətə gələrək gördüklərini qələmə almışdır.***

Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Azərbaycanda da bu sahənin inkişafına ciddi diqqət göstərilməkdədir. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Müasir dövrdə turistlərin Azərbaycana axını artıq kütləvi hal alıb. Son illər vətənimiz turizm ölkəsinə çevrilib. Dünyanın dörd bir yanından buraya turistlər gəlir.




## *Azərbaycan misirli turistlərin gözü ilə*

AZƏRTAC ənənəsinə sadiq qalaraq yenə də ölkəmizə gələn turistlərdən müsahibələr alaraq onların təəssüratlarını oxucular-



la bölüşür. Budəfəki həmsöhbətlərimiz “Zakher Travel” turizm şirkətinin xətti ilə ölkəmizə gəlmiş Misir vətəndaşlarıdır. Misirli turistlərin Azərbaycana səfəri bu ölkənin “Abosamra Travel” şirkəti ilə bağlanmış müqavilə əsasında həyata keçirilir.

Yeri gəlmişkən, qeyd edək ki, avqustun 7-də ölkəmizə birbaşa çarter reysi ilə Misirin Qahirə şəhərindən ilk uçuş baş tutub. “PAS” hava yollarına məxsus təyyarələrlə reallaşdırılan ardıcıl çarter uçuşların birincisi Azərbaycanın Qəbələ hava limanında reallaşdırılıb. Bu səfərdə 70-ə yaxın turistin qonaqlanmasını və Azərbaycanın müxtəlif regionlarında gəzintisini təmin və təşkil edən “Zakher Travel” ölkəmizdə turizm sahəsinin inkişafı üçün mühüm istiqamətin başlanğıcını qoymuşdur. Misirdən birbaşa çarter uçuşlar 7 istiqamət üzrə aparılacaq. Ümumiyyətlə, çarter reysləri vasitəsilə Azərbaycana 600-dək misirli turistin gələcəyi gözlənilir.

Qayıdaq Misirli turistlərin təəssüratlarına. Onlarla görüşümüz müasirliklə qədimliyin qovuşduğu Bakının ən möhtəşəm tikililərindən biri sayılan Heydər Əliyev Mərkəzinin qarşısında baş tutdu. Misirli turistlər qeyd edirdilər ki, bu fərqli arxitektura nümunəsi Azərbaycan paytaxtının mənzərəsinə daha da gözəllik qatır. Onların fikrincə, binanın daxili və xarici görünüşünün bir-birini tamamlaması diqqəti cəlb edən məqamlardandır.

Azərbaycanı ilk dəfədir ziyarət etdiyini söyləyən misirli Abdelaziz Etman burada olmasından məmnunluqla danışıb. Deyib ki, onun bura gəlişinin əsas səbəbi hər iki ölkənin bir-birinə heç də uzaq olmayan məsafədə yerləşməsi və son zamanlar Azərbaycanda turizmin böyük vüsətlə inkişaf etməsidir. Bakının təhlükəsiz, eyni zamanda, memarlıq baxımından cəlbedici bir şəhər olması, xalqımızın səmimiyyəti, insanpərvərliyi misirli turistə olduqca xoş təsir bağışlayıb.

Bu səfərə çıxmazdan əvvəl Bakıda olan həmyerlilərindən ölkəmizlə bağlı xeyli məlumat öyrəndiyini söyləyən Hebatallah Fathy deyib: “Eşitdiyim xoş və maraqlı məlumatlar məni Azərbaycana gəlməyə həvəsləndirdi. Gəldim və eşitdiklərimin həqiqət olduğunu gözlərimlə gördüm. Burada insanların istiqanlılığının, qonaqpərvərliyinin şahidi oldum”.



H.Fathy Misir və Azərbaycan xalqları arasındakı bəzi oxşarlıqlardan da danışıb. Bildirib ki, hər iki ölkənin xalqları eyni dinə - İslama ibadət edirlər. Bir-birinə qarşı həssas və qayğıkeşdirlər. Bu isə onların bir-birini anlamasına, başa düşməsinə imkan yaradır.

Yeri gəlmişkən, Azərbaycan kontekstində də ölkənin diversifikasiyası, regionların inkişafı üçün məhz turizm sənayesi həlledici əhəmiyyət kəsb edir. Turizmdə Azərbaycanın rəqabət imkanları çox yüksəkdir. Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Bununla bərabər, Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son 10 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha geniş şəkildə təmin olunur. Bu sahədəki ən mühüm yeniliklərdən biri də “ASAN Viza” sisteminin tətbiqidir. Məhz ölkəmizə turist axınını sürətləndirən əsas məqamlardan biri də bu sistemlə bağlıdır.

Bakıya “ASAN Viza” ilə daxil olan Ahmed Abdelmoneim Azərbaycan hökumətinə turistlər üçün yaratdığı şəraitə görə təşəkkürünü bildirib. Qeyd edib ki, “ASAN Viza” sisteminin tətbiq edilməsi onun kimi minlərlə misirli turistin Azərbaycana gəlişini asanlaşdırıb. O, Azərbaycana gəlməzdən əvvəl ölkəmiz haqqında internet üzərindən məlumat toplayıb və ölkəmizin müstəqillik uğrunda apardığı mübarizədə böyük itkilərlə üzləşdiyini öyrənib. Elə bu səbəbdən də Bakının qədim abidələrini ziyarət etməklə yanaşı, Şəhidlər xiyabanına baş çəkməyi özünə borc bilib.

Qahirədən olan Amr Abbeimohsen Qubani, Qəbələni və paytaxtımızı ziyarət edərkən belə bir fikrə gəlib ki, Azərbaycanın təbiəti və bölgələri özündə unikal olan xüsusiyyətləri cəmləşdirir. Turist, həmçinin burada Avropadan fərqli olaraq qiymətlərin aşağı olduğunu vurğulayıb. “Bu isə Misir vətən-




daşları üçün olduqca sərfəli və münasibdir”, - deyə söyləyib.

Yuxarıda qeyd etdiyimiz kimi, “Zakher Travel” turizm şirkəti Misir vətəndaşlarının ölkəmizə cəlb olunmasında xüsusi rol oynayır.

Şirkətin departament rəhbəri Ülviyyə İsmayılzadə deyib: “Misirdən Azərbaycana çarter reysləri açılıb. Bu vaxta qədər 140 qonaq qarşılamışıq və daha 600 turistin gəlişinə proqnoz veririk. Misir bizim üçün yeni istiqamətdir. Bu qrupla biz artıq həmin istiqamətin başlanğıcını qoyduq. Hədəfimiz isə gələn qonaqların sayını artırmaqdır. Bizim qruplarda daha çox istirahət mərkəzlərinə gələn turistlər üstünlük təşkil edir. Yaxın zamanlarda isə konfransda iştirak etmək məqsədilə gələn qonaqlarımız da olacaq”.

Ü.İsmayılzadə onu da qeyd edib ki, Misir qrupları şirkətə fərqli bir istiqaməti də göstərdi. Bu onunla izah edildi ki, adətən Körfəz ölkələrindən gələn ərəblər daha çox təbiətə üstünlük verirlər. Misirlilər isə onlardan fərqli olaraq tarixi abidələrə, muzeylərə də maraq göstərirlər.

Azərbaycanda beynəlxalq statuslu hava limanlarının birindən aşağı büdcəli uçuşların təşkili turizmin inkişafı üçün olduqca böyük əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, Kutaisi Beynəlxalq Hava limanı bu baxımdan yaxşı bir nümunədir və dünyanın bir çox yerindən uçuşlara ev sahibliyi edir. Məsələn, keçən il Gürcüstana 8 milyon turist səfər edib. Bu rəqəm Gürcüstanı Azərbaycan üçün prioritet turist mənbəyinə çevirə bilər. Tbilisidən Qazax sərhədimizə qədər olan məsafə təxminən 50 kilometrdir. Bu da Gürcüstanın məşhur istirahət bölgələrindən sayılan Borjomi, Batumiyə qədər olan məsafədən daha azdır. Bu, o deməkdir ki, Kutaisi Beynəlxalq Hava limanına enmiş turistləri ölkəmizə cəlb edə bilərik. Bunun üçün Qazax və Balakən sərhəd keçid-buraxılış məntəqələrinə “ASAN Viza” aparatlarının yerləş-



dirilməsi təmin edilməlidir. Əgər bu mümkün olarsa, turistlər sərhəd keçid-buraxılış məntəqələrində asanlaşdırılmış viza əldə edə bilər və ölkəmizə də turist axını daha da sürətlənər.

Turizm şirkətinin sözçüsü deyib ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda 15 ölkənin vətəndaşlarına sadələşdirilmiş viza prosedurlarının tətbiqi bu sahədə böyük irəliləyişlərə səbəb olub. Yaxşı olardı ki, sadələşdirilmiş viza rejimi quru sərhədlərimizdə də tətbiq edilsin. Əgər bu sistem quru sərhədlərimizdə də tətbiq edilərsə, nəticədə Gəncə, Göygöl, Qax, Şəki və digər bölgələrimizə turistlərin axını daha da sürətlənər.

Bir sözlə, söhbət turizmin ölkə iqtisadiyyatının ən dayanıqlı, effektiv və rəqabətə davamlı sahəsinə çevrilməsindən gedir. Son vaxtlar bu istiqamətlərdə müsbət dinamika güclənməkdədir. Hər il Azərbaycanda 25-50 yeni mehmanxana, hotel, motel və digər turist yerləşdirmə obyektinin təməli qoyulur. Bundan başqa, iş adamlarında turizm sahəsinə böyük maraq yaranıb. 10 il əvvəl ölkədə cəmi 32 turizm şirkəti vardısa, bu gün onların sayı 100-dən çoxdur. Dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək üçün müxtəlif istiqamətlərdə fəal işlər görülür. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, bukletlər, disklər hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internet imkanlarından geniş is-



tifadə olunur. İlbəil ölkəyə gələn turistlərin sayı artır. Bu yüksək göstəricilər Dünya Turizm Təşkilatı tərəfindən də qeyd olunub. Bu, ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin nəticəsi olmaqla yanaşı, həm də dövlət tərəfindən turizm sahəsinə göstərilən diqqətin təzahürüdür. Bütün bunlar ümid etməyə tam əsas verir ki, növbəti illərdə bu sahədə uğurlarımız daha da çox olacaqdır.

# “Din və ideoloji təhlükəsizlik”

## *Bu mövzuda Astarada seminar-müşavirə keçirilib*



***Dünən Astara rayon Mədəniyyət Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Astara rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə “Din və ideoloji təhlükəsizlik” mövzusunda seminar-müşavirə keçirilib. Tədbir iştirakçıları əvvəlcə Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş “Heydər Əliyev: dəyərlərimizin xilaskarı” sənədli filminə baxıblar. Müşavirəni giriş sözü ilə açan Astara rayon icra hakimiyyəti başçısının birinci müavini Allahverən Mahmudov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin bu gün ölkəmizin inkişafına böyük töhfə verdiyini vurğulayıb. Dövlətimiz tərəfindən milli-mənəvi dəyərlərimizə ali diqqət və qayğının göstərildiyini qeyd edən A.Mahmudov Azərbaycan dindarlarının daim dövlətçiliyimizə sadiq olduqlarını deyib.***



Seminar-müşavirədə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, xalqımızın multikultural və tolerant dəyərləri, o cümlədən, milli-mənəvi və dini dəyərlərimizin təşviqi, vətəndaşlarımızın yad dini ideologiyaların və xurafat elementlərinin təsirlərindən qorunmalarının vacibliyindən danışıb.

Sədr müavinin sözlərinə görə, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə, bilavasitə məsuliyyət daşıyır. Dövlətimizin dini ekstremizmin qarşısının alınması, vətəndaşlarımızın yad dini ideologiyaların təsirindən qorunması, ölkədəki dini durumun sabit saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlərin önəminə diqqət çəkən sədr müavini hazırda dünyada, xüsusilə, müsəlman ölkələrində sabitliyin pozulmasında din amilinin xüsusi rol oynadığını və beynəlxalq güclərin bu vəziyyətdən məharətlə istifadə etdiyini diqqətə çatdırıb.

Tədbirdə nümayiş olunan DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə lentə alınmış “Heydər Əliyev: dəyərlərimizin xilaskarı” adlı sənədli filmin əhəmiyyətinə toxunan sədr müavini Ulu Öndərin milli-mənəvi dəyərlərin dirçəldilməsi və qorunub-saxlanması istiqamətində həyata keçirdiyi mühüm tədbirlərdən danışıb. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən din siyasəti çərçivəsində dini radikalizm və beynəlxalq terrorizmin təzahürlərinin qarşısının alınmasında, o cümlədən, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi, islamofob meyillərə qarşı mübarizədə dinlərarası əməkdaşlığın gücləndirilməsi üzrə fikir mübadiləsi üçün uğurlu platforma yaradılıb.

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımızın mənəvi dəyərlərinin qorunması və təbliği, mədəniyyətlərarası dialoqun təşkili və təşviqi sahəsindəki çoxşaxəli və olduqca mühüm əhəmiyyət kəsb edən fəaliyyəti diqqətə çatdırılıb.

Daxili İşlər Nazirliyinin nümayəndəsi Oqtay Tağıyev çıxışında bildirib ki, din insanlara gözəl əxlaq sahibi olmağı, yaxşılıq etməyi və pislikdən çəkinməyi öyrədir. DİN tərəfindən qeyri-qanuni dini fəaliyyətin, radikal, separatçı və ekstremist yönümlü hərəkətlərin qarşısının alınması, “Dini etiqad azadlığı haqqında” və “Dini ekstremizmə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası qanunlarının tələblərinə riayət edilməsi ilə əlaqədar konkret tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin Astara rayonu üzrə səlahiyyətli nümayəndəsi İlqar Həsənli çıxışında qeyd edib ki, ölkəmizdə tolerant, multikultural dəyərlər, həmçinin, dinlərarası və məzhəblərarası həmrəylik münasibətləri hökm sürür. Bunu Astara rayonunun timsalında aydın görmək olar. Rayonun Pensər kəndi hər iki məzhəb nümayəndələrinin birgə yaşadığı yaşayış məntəqələrindən biridir. Kənddəki hər iki məsciddə bütün cümə namazları, hər məsciddə bir dəfə olmaqla vəhdət şəklində qılınır.

Seminar-müşavirəyə yekun vuran S.Heydərov sentyabrın 1-də müsəlman dünyasında Məhərrəmlik ayının başlanması ilə əlaqədar məscidlərdə və digər ibadət yerlərində dini mərasimlərinin icrası zamanı Qafqaz Müsəlmanları İdarəsinin verdiyi Fətvanın tələblərinə ciddi riayət olunmasının vacibliyini diqqətə çatdırıb.

***Z.BAYRAMOVA***

# Yüksək bal toplayan çoxlu sayda abituriyent müəllim peşəsini seçib



Bu il çoxlu sayda abituriyent qəbul imtahanı zamanı 500 və daha çox bal toplayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetini (ADPU) seçib. Universitetdən AZƏRTAC-a bildirilib ki, Masallı rayonunun Miyankü kəndindən Şahin Rzayev 585 bal, Bakıdan Şəlalə Eyvazlı 545 bal, Bərdə rayonunun Gərənə kəndindən Aytac Həsənli 542 bal, Sumqayıtdan Nuranə Qəribova 539 bal, Bakıdan Nərmin Qürbətova 531 bal, Sabirabad rayonunun Güdəcühür kəndindən Ziba Səmidova 526 bal, Masallı rayonunun Alışanlı kəndindən Zeynəb Həsənzadə 504 bal toplayaraq ADPU-ya qəbul olunublar.

# Şəhid vərəsələrinə birdəfəlik ödəmə ilə təminat proqramı 93 faiz icra edilib

Hər bir Azərbaycan vətəndaşı, ölkəmizin iqtisadi gücü və qüdrətinin ilbəil artmasının şahidi olur və iqtisadi inkişafın nəticələrini həyat səviyyəsinin yüksəlməsində hiss edir. Müstəqillik dövründə Azərbaycanda həyata keçirilən islahatlar, dövlət proqramlar və layihələr ölkəmizi sürətlə sosial iqtisadi cəhətdən inkişaf edən ölkəyə çevirib. Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Son 16 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar və əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin ilk aylarında imzaladığı fərman və sərəncamlar dövlətin yeni sosial paketinin işə başladığını göstərmiş oldu. İmzalanan sənədlər əsasında sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. Görülən işlər, bir daha təsdiq edir ki, ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb və insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə, birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrasının nəticəsi olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanının icrasının nəticəsi olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid hərbi qulluqçuların və şəhid polis əməkdaşlarının vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir. Birdəfəlik ödəmə ilə təminat proqramı artıq 93 faiz icra edilib. Belə ki, daha 109 şəhidin 185 vərəsəsinə birdəfəlik ödəmə verilməsinə dair qərar qəbul olunub. Birdəfəlik ödəmələr yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürüləcək. Qeyd etdiyimiz ki, ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Bu günədək onlardan artıq 11403 şəhidin 16949 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatına dair qərar qəbul olunub. Əlbəttə ki, ölkəmizdə iqtisadi sabitləşmə sosial sahədə ciddi dəyişikliklərə səbəb olub. Bu və ya digər sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir.

***Zümrüd***

# Erməni alimlər çıxılmaz duruma düşüblər

Yeni dərs ilinin başlamasına az qalsa da, erməni alimlər tarix dərsliklərində son 10 ildə bu ölkədə baş verənləri yazmaqda aciz qalıblar. Əsas problem siyasi hadisələrin hansı mövqedən şərh olunmasıdır. SİA erməni KİV-nə istinadla xəbər verir ki, Ermənistanın Təhsil, Elm və İdman nazirinin müavini Lusina Arakelyan orta məktəblər üçün tarix dərsliklərində məzmunun dəyişdiriləcəyini bəyan edib. Bunun əksinə olaraq, nazir Araik Arutyunyan bildirib ki, ən yeni tarixin müəyyən hadisələrinin traktovkası yenidən veriləcək. Bu ziddiyyətlərin fonunda Ermənistanda 1991-ci ildən bəri baş verən hadisələrin tarix kitablarında yazılması məsələsi düyünə düşüb. Ən mübahisəli mövzulardan biri 2008-ci ildə seçkilərdən sonra baş vermiş proseslərin şərhidir. Problemi həll etmək üçün 6 alimdən ibarət komissiya yaradılıb. Onların işləyib hazırladığı kitabın son variantı Milli Təhsil İnstitutuna göndərilib, amma 2013-2018-ci illərə aid hadisələrin şərhini təsdiq etmək mümkün olmayıb. Bunu görən erməni alimlər qərara gəliblər ki, dünya təcrübəsinə müraciət etsinlər: inkişaf etmiş ölkələrdə son 15-20 ilin hadisələri məktəb proqramına daxil edilibmi?



Ermənistan Tarix İnstitutunun direktoru Aşot Melkunyan son illərdə ölkədə cərəyan edən hadisələrə neytral qiymət verildiyini bildirib, lakin hakimiyyət heç də bu fikirdə deyil. O əlavə edib ki, Koçaryanın prezidentliyi dövründə baş vermiş siyasi qalmaqallara siyasi hakimiyyət və məhkəmələr qiymət verməlidir. Onun sözlərinə görə, bu, tarixçi alimlərin işi deyil.

# Azərbaycanın sədrliyi: Bakı Qoşulmama Hərəkatına yeni stimul verir

***Keçən əsrin ortalarında beynəlxalq münasibətlər sistemini tənzimləmək üçün mexanizmlər axtarıldı. Onların sırasında 1955-ci ildə təsis edilmiş Qoşulmama Hərəkatının öz yeri vardır. Bu təşkilatın rəsmən yaradılması 1961-ci il Belqrad Konfransına aid edirlər. Bütün hallarda təşkilatın başlıca vəzifəsi kimi qlobal miqyasda sülh, əmin-amanlıq, dinc yanaşı yaşama, ədalətli əməkdaşlıq prinsiplərinin bərqərar olması göstərilir. Təcrübə göstərir ki, dünyanın belə bir təşkilata ciddi ehtiyacı mövcuddur. Doğrudur, "soyuq müharibə"dən sonra bir müddət Qoşulmama Hərəkatına sanki maraq azaldı. Ancaq proseslərin gedişi göstərdi ki, əksinə, XXI əsrdə beynəlxalq aləmin bu hərəkata daha çox ehtiyacı olacaq. Bu səbəbdən indi həmin təşkilatın gücləndirilməsində maraqlı olan ölkələr çoxdur. Bu ildən Qoşulmama Hərəkatında sədrlik iki il müddətinə Azərbaycana keçir. Bu hadisə kontekstində Qoşulmama Hərəkatının fəaliyyətinin geosiyasi aspektinin geniş təhlilinə ehtiyac görürük.***




## Ədalətli dünya uğrunda: "zərurətdən doğan birlik"

Müasir dünyada geosiyasi mənzərənin mürəkkəbliyindən, ziddiyyətli məqamlarından, risklərindən mütəxəssislər çox yazır, siyasilər danışırlar. Bütün dünyanı dinc yanaşı yaşamağın yolları maraqlandırır. Bu prosesdə beynəlxalq təşkilatların rolunun artırılmasından bəhs edilir. Hətta BMT-nin kifayət qədər təsirli olmadığı da vurğulanır. Burada əsas şərtlərdən biri dünya dövlətlərinin beynəlxalq hüquqa əməl etməsi, normaları, qaydaları gözləməsi və əməkdaşlıqda səmimiyyəti, ədaləti qorumasıdır. BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının əhəmiyyəti bu kontekstdə çox böyükdür.

Bu təşkilatın əsası 1955-ci ildə, yəni BMT yarananda 10 il sonra qoyulub. Təşəbbüskarından biri, o dövrdə "üçüncü dünya ölkələri" sırasında olan İndoneziyanın Prezidenti Əhməd Sukarno olub! O, 22 il bu ölkəyə rəhbərlik edib. Ə.Sukarno Qoşulmama Hərəkatını "zərurətdən yaranan birlik" adlandırmışdı. Səbəbi nədən ibarət ola bilərdi?

İkinci dünya müharibəsindən sonra dünya faktiki olaraq Qərb və SSRİ kimi iki əks düşərgəyə bölündü. Aydın görünürdü ki, belə bir şəraitdə beynəlxalq münasibətlərdə ədaləti, hüquq normalarını və dinc yanaşı yaşamağı təmin etmək xeyli çətin olacaqdı. Xüsusilə dünyanın çox sayda dövlətlərinin maraqlarının nəzərə alınmaması, bitərəf bir mövqenin formalaşmasının mümkün olmayacağı hiss edilirdi.

Bu səbəblərdən iki böyük gücdən kənarda olan ölkələrin maraqlarını gözləyə biləcək, ədalətli, bitərəf, səmərəli, konstruktiv mövqe tutacaq beynəlxalq təşkilata ehtiyac vardı. Bu təşkilat həm də ABŞ və SSRİ arasındakı qarşıdurmadan, ziddiyyətlərin gərginləşməsindən kənarda qala biləcək bir geosiyasi və siyasi-diplomatik mühit yaratmalı idi. Məhz buna görədir ki, həmin təşkilatın adında "qoşulmama" sözü vardır. Bu təşkilatın Asiya və Afrika ölkələrinin Bandunq Konfransında təsis edilməsi də tam məntiqli idi.

Ona üzv olan ölkələrin xarici siyasətində hərbi-siyasi bloklarda iştirakdan imtina, xalqların müstəqillik və hüquq bərabərliyi prinsipləri əsasında dinc yanaşı yaşaması prinsipləri üstünlük təşkil edir. Bandunq Konfransında Ümumi sülhə və əməkdaşlığa dəstək haqqında Bəyannamə qəbul edildi. Sənəddə ölkələrin dinc yanaşı yaşamasının və əməkdaşlığının on prinsipi şərh edilmişdi.

Orada insan hüquqlarına, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət yer alıb. Bunlardan əlavə, başqa ölkəyə hərbi müdaxilədən və onun daxili işlərinə qarışmaqdan çəkinmə, BMT Nizamnaməsinə müvafiq olaraq, hər bir ölkənin fərdi və kollektiv müdafiə hüququna hörmət, hər hansı ölkənin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı təcavüz və ya güc tətbiqetmə aktlarından, yaxud bu cür təhdidlərdən çəkinmə ifadə edilib.

1961-ci il Belqrad Konfransının Bəyannaməsində də bu prinsiplər öz əksini tapıb. Beləliklə, Qoşulmama Hərəkatının baza prinsipləri kimi beynəlxalq münasibətlərdə diktatın, hegemonluğun və ekspansiyanın qəbul edilməməsi, dövlətlər arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın zəruriliyi, ədalətə və hüquq bərabərliyinə əsaslanan yeni iqtisadi qaydanın formalaşması uğrunda mübarizə qəbul edilib.

Təcrübə göstərdi ki, bu təşkilatın yuxarıda vurğulanan prinsiplər əsasında yaradılması dünya üçün faydalıdır. Həm "soyuq müharibə" dövründə, həm də ondan sonra dünyanın həmin prinsiplərə ehtiyacı çox olub. XXI əsrin başlanğıcı göstərdi ki, Qoşulmama Hərəkatının aktuallığı getdikcə daha da artır. Artıq onun 120 üzvü vardır.

## Fəal mövqe: Azərbaycanın növbəti nümunəsi

Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür. 2019-2021-ci illərdə bu təşkilata sədrlik edəcək. Prezident İlham Əliyevin 2019-cu il 11 fevral tarixli Sərəncamında təşkilatın Azərbaycana verdiyi xarici siyasət dividendləri konkret ifadə edilib. Sərəncamda vurğulanıb ki, Azərbaycanın Qoşulmama Hərəkatında iştirakı onun beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq proseslərinə daha fəal cəlb edilməsinə geniş imkanlar açıb. Eyni zamanda, Azərbaycanın müxtəlif dövlətlərlə, o cümlədən Latın Amerikası, Asiya və Afrika ölkələrinin çoxu ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafı üçün əlverişli şərait formalaşıb.

Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatı Azərbaycan üçün iki miqyasda - regional və qlobal səviyyədə geosiyasi proseslərə daha aktiv təsir etmək imkanı yaradır. Regional səviyyədə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində meydana gəlmiş qanlı münaqişənin ədalətli, beynəlxalq hüquq prinsipləri çərçivəsində aradan qaldırılması üçün fəaliyyət meydanı genişlənir. Dünyanın 120 ölkəsi təcavüzkarın qarşısının alınması məsələsində həmrəy olursa, bu, ciddi hadisədir. Məsələ yalnız söz deməklə məhdudlaşmır, onun həyata keçməsi üçün də müəyyən mexanizmlər mövcuddur. Qoşulmama Hərəkatı bu aspektdə böyük dövlətlərə də müraciətlər hazırlaya bilər.

Məlumdur ki, artıq Qoşulmama Hərəkatının nazirləri bir çağırış ediblər. Onlar çağırışda BMT Nizamnaməsində göstərilmiş güc tətbiq etməmə prinsipinin əhəmiyyətini təsdiq ediblər. Bu əsasda münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində danışıqlar vasitəsilə nizamlanması zəruriliyini vurğulayıblar. Təbii ki, Yer kürəsi əhalisinin təqribən 55 faizinin yaşadığı 120 ölkənin etdiyi bu çağırış ciddi siyasi və geosiyasi əhəmiyyətə malikdir.

Qlobal miqyasda isə Qoşulmama Hərəkatı bütövlükdə dünyada ədalətli, dinc və sivil qaydada birgəyaşayışın təmin edilməsinə öz töhfəsini verə bilər. Bu baxımdan 2018-ci ildə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusundakı konfransında Prezident İlham Əliyevin vurğuladığı bir fikir olduqca maraqlı və əhəmiyyətlidir. Dövlət başçısı ifadə edib: "Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik".

Bu fikirlər indiki mərhələdə geosiyasi mühitdə cərəyan edən hadisələr və yeni dünya nizamının formalaşması zərurəti işığında çox aktual görünür. Siyasi liderlər qlobal səviyyədə geosiyasi ziddiyyətlərin və onların fonunda dünya miqyasında xaosun getdikcə daha da dərinləşdiyini vurğulayırlar. Yeni dünya nizamının formalaşmasına bu, təbii ki, ciddi mənfi təsir göstərir. Belə bir şəraitdə beynəlxalq səviyyədə yeni nizamın yaradılmasına yardım edə biləcək hər bir təşəbbüs qiymətlidir.

Bu il oktyabrın 25-26-da Bakıda keçirilməsi nəzərdə tutulan Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü həmin səbəbdən son dərəcə əhəmiyyətli hesab edilir. Azərbaycanın belə bir nüfuzlu təşkilata sədrlik etməyə başlaması, əlbəttə, bütün sivilizasiyalı bəşəriyyət üçün əlavə fürsətdir. Şübhə yoxdur ki, Bakı hər bir ölkə üçün aktual olan məsələlərin müzakirəsinə üstünlük verəcək. Dünyanın indiki qarışıq dövründə beynəlxalq hüquq normalarına uyğun fəaliyyət göstərməyin təşviq edilməsi prinsipial olaraq faydalıdır. Konkret desək, Azərbaycan üçün aktual olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllində yeni imkanlar yaranmaqdadır. Əlbəttə, Bakı bu şansdan maksimum dərəcədə yararlanmağa çalışacaq.

Bundan başqa, Azərbaycanın bu hərəkata sədrlik etməsi, ümumiyyətlə, Cənubi Qafqaz üçün faydalıdır. Azərbaycan regionun lideri olmaqla yanaşı, həm də qarşılıqlı faydalı kooperasiyanın müxtəlif formatlarına əsaslanan fəaliyyəti ilə seçilir. Deməli, Qoşulmama Hərəkatı çərçivəsində Bakının imkanları daha da genişlənəcək.

Nəhayət, onu da vurğulayaq ki, Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycana verilən yüksək qiymət ölkə rəhbərliyinin davamlı olaraq həyata keçirdiyi siyasətin təntənəsidir. Regionun başqa bir ölkəsi bu kimi nailiyyətlər əldə edə bilməyib. Azərbaycan bundan sonra da Cənubi Qafqazın lider dövləti olaraq, bütün istiqamətlərdə daha faydalı və konstruktiv fəaliyyətini davam etdirəcək.

***Newtimes.az***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

21 avqust 2019-cu il

# Aqrar sığorta sisteminin təşkili, inkişafı və dayanıqlılığı təmin edilir

*Dövlət başçısının Fərmanı ilə ölkəmizdə Aqrar Sığorta Fondu yaradılacaq*

***Ölkəmizdə uğurlu daxili və xarici siyasət sayəsində dövlətçilik ənənələri möhkəmlənib və iqtisadiyyat dinamik inkişaf edib. Dövlət neft strategiyasının uğurla həyata keçirilməsi ilə yanaşı, ölkəmizdə müasir iqtisadiyyatın əsaslarının yaradılması, torpaq islahatlarının həyata keçirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, maliyyə-bank sisteminin qurulması istiqamətlərində mühüm layihələr gerçəkləşdirilib. Ölkəmizdə neft və qeyri-neft sektorunun yüksəlişi ümumi daxili məhsulun artmasına, sahibkarlar zümrəsinin və orta təbəqənin yaranmasına təkan verib. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkənin sosial-iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı önəmli yer tutub. Təsadüfi deyil ki, ölkə iqtisadiyyatının böhrandan çıxarılması və gələcək inkişafı üçün həlledici faktor olan “Əsrin Müqaviləsi”nin imzalanmasından sonra ölkədə aqrar islahatların həyata keçirilməsi üçün kompleks tədbirlər görülməsinə başlanılıb.***

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq, kənd təsərrüfatı sahəsinin də inkişafında yeni mərhələ başladı. Sistemli və dayanıqlı inkişafın dövlət tənzimlənməsinin mütərəqqi bir metoduna çevrilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində kənd təsərrüfatının inkişafı ilə bağlı yeni mexanizmlər tətbiq olundu. Bu baxımdan, regionların sosial-iqtisadi in-






kişafı siyasəti çərçivəsində kənd yerlərində sosial infrastrukturun inkişafı, fermerlərin istehsal vasitələri ilə təminatının gücləndirilməsi məqsədilə “Aqrolizinq” ASC-nin yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının gübrə, yanacaq və toxumla təminatının yaxşılaşdırılması üçün subsidiyaların verilməsi tədbirlərini xüsusi qeyd etmək lazımdır.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” 16 yanvar 2014-cü il tarixli Sərəncam və “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” 16 aprel 2014-cü il tarixli Fərman imzalanmışdır. Tarixi əhəmiyyətli bu qərarlarla aqrar sektorun inkişafının prioritet hədəfləri yeni çağırışlar fonunda müəyyən edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür.

Görülən işlərin və həyata keçirilən tədbirlərin davamı olaraq “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə Azərbaycan Respublikası Prezidenti Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasında aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə, idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən “Aqrar Sığorta Fondu” qeyri-kommersiya hüquqi şəxsi (bundan sonra - fond) yaradılacaq. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb, Azərbaycan Prezidentinə təqdim edəcək.

Dövlət başçısı tərəfindən təsdiq olunmuş Qanunda mühüm məsələlər əksini tapır. Aqrar sığortanın həyata keçirilməsində dövlətin vəzifələri müəyyənləşib. Aqrar sığorta predmetlərini və aqrar sığorta risklərini müəyyənləşdirmək, aqrar sığorta sahəsində dövlət siyasətinin istiqamətlərini müəyyən etmək və normativ-hüquqi aktlar qəbul etmək, aqrar sığorta üzrə fəaliyyətin genişləndirilməsi üçün stimullaşdırıcı tədbirlər həyata keçirmək Qanunda öz əksini tapıb. Aqrar sığortanın tətbiqinin genişləndirilməsi üçün maarifləndirmə və məlumatlandırma işini təşkil etmək, aqrar sığorta sisteminin tətbiqinə nəzarət etmək və fasiləsizliyinin təmin edilməsinə dəstək göstərmək də qeyd olunur.

Qanunun tələblərinə uyğun olaraq, aqrar sığortanın predmeti kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları (çoxillik əkmələr və onların məhsulu daxil olmaqla), kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar akvakultura məhsulu sayılır.

Aqrar sığorta ilə bağlı fəaliyyət üzrə subyektlərin hərəkətlərinin elektron qaydada aparılması, aqrar sığorta məhsulunun elektron təşkili, aqrar sığortalıların qeydiyyatının və göstərilən xidmətlərə nəzarətin operativ qaydada həyata keçirilməsi məqsədilə aqrar sığorta orqanı tərəfindən aqrar sığorta informasiya sistemi yaradılacaq. Əminliklə vurğulayaq ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistem xarakterli dərin islahatlar nəticəsində, ölkəmizdə formalaşmış iqtisadi islahatlar və inkişafın Azərbaycan modeli mahiyyət etibarı ilə daha yüksək vüsət alacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tahir Rzayev: Ölkəmizdə davamlı islahatların həyata keçirilməsi milli iqtisadiyyatımızın inkişafını şərtləndirən mühüm amillərədn biridir

***“Azərbaycan son 16 ildə sosial-iqtisadi inkişaf baxımından böyük nailiyyətlər qazanıb. Bu dövrdə milli iqtisadiyyatımızda 3 dəfədən çox artıma nail olunub”. Bu fikirləri Milli Məclisin deputatı Tahir Rzayev deyib.***



T.Rzayev bildirib ki, nüfuzlu beynəlxalq reytinq agentlikləri, o cümlədən Dünya Bankı, Davos İqtisadi Forumu öz hesabatlarında Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini yüksək dəyərləndiriblər. Onun sözlərinə görə, respublikamızın iqtisadiyyatı dünya üçün çətin keçən illərdə də özünün yüksək dayanıqlılığını qoruyub saxlayır və genişlənməkdə davam edir.

“Bu ilin birinci yarısında da milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri neftdən kənar sektorda, o cümlədən də qeyri-neft sənayesində qeydə alınıb. Ölkəmizdə davamlı islahatların həyata keçirilməsi milli iqtisadiyyatımızın inkişafını və dayanıqlılığını şərtləndirən mühüm amillərədn biridir. Azərbaycan iqtisadiyyatına müxtəlif mənbələrdən yönəldilən investisiyaların həcmi ildən-ilə artır. Qlobal miqyasda ayrı-ayrı ölkələrin sərmayələrin cəlb edilməsində ciddi problemlərlə üzləndiklərini nəzərə alsaq, deyə bilərik ki, Azərbaycanın yüksək investisiya cəlbediciliyini qoruyub saxlaması böyük əhəmiyyət daşıyır. Son 16 ildə respublikamıza sərmayə qoyuluşunun əhəmiyyətli dərəcədə artması ilk növbədə Azərbaycanın müsbət reallıqları ilə bağlıdır. Əvvəlki illərdə yaradılan güclü iqtisadi potensial, müasir infrastruktur təminatı, nəqliyyat dəhlizləri, Avropaya və Asiyaya çıxış imkanlarının eyni bir məkanda cəmləşməsi və əlbəttə ki, möhkəm daxili sabitlik yerli və xarici iş adamlarının çəkinmədən ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayələr yönəltmələrinə güclü stimul verir”-deyə, T.Rzayev qeyd edib.

# Ali məktəblərin boş plan yerlərinə və kolleclərdə qəbul üçün keçirilən müsabiqələrin nəticələri açıqlanıb

Ali təhsil müəssisələrinə boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri açıqlanıb. Nəticələri SMS vasitəsilə öyrənmək istəyən abituriyentlər elektron ixtisas seçimi ərizələrində qeyd olunmuş kodu ( sonuna “9” rəqəmi əlavə olunmuş iş nömrəsini) 7727 qısa nömrəsinə göndərməlidirlər.

Qeyd edək ki, nəticələr yaxın vaxtlarda Dövlət İmtahan Mərkəzini saytında da yerləşdiriləcək. Dövlət İmtahan Mərkəzi abituriyentlərə SMS-i bir dəfə göndərməyi tövsiyə edir. Nəticələr elan olunmamış SMS göndərən abituriyentlərə də müsabiqə nəticələri barədə məlumat göndərilir.

## 6 ayda ölkədə 92 min yeni iş yerləri açılıb

İlin birinci yarısında ölkədə 92 min yeni iş yerləri açılıb ki, bunun da 28,9 faizi qeyri-dövlət sektorundadır. Dövlət Statistika Komitəsindən SİA-a bildirilib ki, yeni iş yerlərinin 63,6 faizi Bakı şəhərinin, 0,4 faizi Naxçıvan Muxtar Respublikasının, 36 faizi digər regionların, o cümlədən 13 faizi Aran, 6,4 faizi Gəncə-Qazax, 6,2 faizi Lənkəran, 2,6 faizi Dağlıq Şirvan, 2,5 faizi Yuxarı Qarabağ, 2,4 faizi Şəki-Zaqatala, 1,8 faizi Abşeron, 1 faizi Quba-Xaçmaz, 0,1 faizi isə Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşüb.



Yeni açılmış iş yerlərinin 43,8 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 28,5 faizi mövcud müəssisə və təşkilatlarda, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 27,4 faizi isə digər tədbirlər üzrə yaradılıb. Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 55,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 11,2 faizi tikinti, 7,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,7 faizi emal sənayesi, 2,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2 faizi peşə, elmi və texniki fəaliyyət, 11,1 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.

# Əli Kərimli anti-Azərbaycan şəbəkənin missioneridir

## *Yeni faktlar növbəti dəfə AXCP sədrini ifşa edir*

***Müxalifətin dağıdıcı qanadının xalqa və dövlətə zidd siyasət yürütməsi, qəpik-quruş qazanmaq üçün satqınçılıq etmələri təkzibedilməz faktdır. Bu faktlar dəfələrlə sübuta yetirilib. Bu baxımdan, cəmiyyət AXCP, Müsavat, "Milli Şura" rəhbərliyinin hansı mənsəbə və nəyə görə xidmət etdiklərini yaxşı bilirlər. Məhz bu ünsürlər hakimiyyətdə olduqları bir illik iqtidarları dövründə Azərbaycan xalqının üzləşdiyi faciələrin yaşanmasında, siyasi alver predmeti olaraq, ərazilərimizin hərraca qoyulmalarında mühüm rol oynamışlar.***

İsa Qəmbərin, Əli Kərimlinin, Arif Hacılının və digərlərinin yarıtmaz siyasətləri nəticəsində Azərbaycan xaos, anarxiya girdabına, cinayətkarlığın meydan suladığı məkana çevrildi, dövlət və xalq əmlakı talan edildi. AXC-Müsavat cütlüyünün səriştəsizliyindən yararlanan anti-Azərbaycan qüvvələr Azərbaycana öz şərtlərini diktə etdilər. Yaxşı ki, bu siyasət uzun çəkmədi. Xalq qətiyyətli və sərt mövqe ortaya qoymaqla, onların özbaşınalıqlarına son qoydu. Millət öz Liderini hakimiyyətə dəvət edərək, ölkəni məhv olmaqdan, xaos və anarxiyadan xilas edə bildi. Düşünmək olardı ki, siyasi cəhətdən naşı, bilik və bacarıqda savadsız, idarəetmədə və təşkilatçılıqda bacarıqsız olan bu məxluqlar Tofiq Qasımov və digərləri kimi siyasətə əlvida deməklə, öz müəllimlik və ya laborant peşələrini davama etdirəcəklər. Ancaq xarici maraqlı dairələrin əlində oyuncaq olduqlarından siyasətdə qalıb, çirkin əməllərini davam etdirmək yolunu tutdular. Hətta İsa Qəmbər Müsavatı, Əli Kərimli isə Əbulfəz Elçibəyin vəfatından sonar AXCP-ni ələ keçirib, iddialı çıxışlar etməyə başladılar.

### Elşad Musayev Əli Kərimlini tərbiyyəsiz hesab edir

Müxalifətin sıralarının genişləndiyi bir vaxtda ən çox təlatümlərə və qopmalara məruz qalan AXCP və Müsavat olub. Demək olar ki, Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP, iki il ərzində üç dəfə parçalanıb, partiyanın 56 rayon təşkilatından 38-i buraxıldığını elan edib. Buna baxmayaraq, Ə.Kərimli siyasətə gəlir mənbəyi kimi baxdığından sədrlik kreslosundan əl çəkməyib. Müxtəlif vasitə və üsullardan istifadə etməklə, hələ də siyasətdə olduğunu nümayiş etdirməyə çalışır. Ona görə də, bəzi siyasi ekspertlər Ə.Kərimlini həyasız partiya sədri kimi dəyərləndirirlər. Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə, Ə.Kərimlini tərbiyyəsiz hesab edir: "Cəmiyyətdə abır-həyalarını qoruyan şəxslər AXCP-dəki qaragüruha cavab vermək istəmirlər. Çünki tərbiyə var. Onlar da abırlarını qoruduqca, qaragüruh daha da azğınlaşır. Təsəvvür edin ki, hər cür rola girən, uzun illər başqalarına işləyən şəxslər indi başqalarını şərləyirlər. Onlar vaxtilə separat danışıqlara gedib, maliyyə qazanıblar. Bunları ifşa etmək lazımdır. Ancaq insanlar abır-həyalarına qısılaraq, cavab vermək istəmirlər. Bu baxımdan, hesab edirəm ki, qaragüruha birgə tədbirlə bağlı müraciət etmək lazım deyildi. "Antiböhran



Koalisiyası"na daxil olan qüvvələr iki dəfə böyük tədbir təşkil ediblər. Bu baxımdan, başqa qüvvələrə ehtiyac olmamalıdır...Görünür, AXCP rəhbərliyinin göstərişi belədir. "Milli Şura" da da bəziləri var ki, ancaq söyüş və təhqirlə danışırlar. Onlara layiq olduqları cavabı vermək lazımdır".E. Musayevin sözlərinə görə, Əbülfəz Elçibəy hakimiyyətini yıxan da, məhz Əli Kərimli və onun qaragüruhçu "Yurd" dəstəsi olub: "Nəzərə alın ki, Əbülfəz Elçibəy hakimiyyətini bu qaragüruh devirib. Yalandan AMİP-in, başqa qüvvələrin adını çəkirlər. Ancaq həmin hakimiyyətə etimadsızlığı elə bu qaragüruh yaratmışdı. İndi də qaragüruh başqa formada ortaya çıxıb. Onlar hesab edirlər ki, siyasətdə şər-şəbədə, söyüş və təhqirlə uğur əldə etmək olar. Bizim təmsil etdiyimiz qisim hesab edir ki, dünyada və regionda gedən proseslər nəzərə alınmalı, ölkəni xaosa salmadan məsafə qət etmək lazımdır. Bu yol düzgün yoldur. Biz xaos yolunu rədd edirik. Eyni zamanda, heç kəsə də söymürük".

### "Milli Şura" dağıldı, növbə AXCP-nindir

Maraqlıdır ki, siyasi ekspertlər tərəfindən tərbiyyəsiz və həyasız partiya sədri kimi dəyərləndirilən Ə.Kərimli gündəmdə qalmaq və diqqət mərkəzinə çevrilmək üçün çabalarını, dünən olduğu kimi, bu gün də davam etdirir. Onun, qondarma qurum olan "Milli Şura"nın təsisçilərindən biri olaraq çıxış etməsi də, siyasətdə qalmaq üçün atılan əhəmiyyətsiz addımlardandır. Ancaq görünən və baş verənlər, onu deməyə əsas verir ki, Ə.Kərimliinin "Milli Şura" ilə bağlı ümidləri iflasa uğrayıb. Bu, azmış kimi, "Milli Şura" layihəsi Ə.Kərimliyə qarşı ictimai rəydəki mənfi münasibət daha da genişlənmiş oldu. Çünki Ə.Kərimlinin istək və arzusu ilə "Milli Şura" rəhbərliyinə gətirilən Rüstəm İbrahimbəyov ermənipərəst açıqlamaları ilə müxalifəti acınacaqlı bir vəziyyətə salmış oldu. Xüsusilə də, R.İbrahimbəyovun "Qafkazskaya politika"ya müsahibəsində Rüstəm İbrahimbəyov ermənilərə olan sevgisini, anti-Azərbaycan mövqeyini sərgiləməsi, "Milli Şura" təsisçilərinə olan ictimai nifrəti, bir qədər də genişləndirdi. R.İbrahimbəyov bildirib ki, Dağlıq Qarabağ məsələsinin hərbi yolla həlli ilə bağlı hələ danışmaq istəmir: "Dağlıq Qarabağ probleminin həlli Azərbaycandakı daxili problemlərlə əlaqədar çətinləşir. Biz Qarabağı verməli deyilik, amma biz ermənilərə demokratiya, korrupsiyanın olmaması, azərbaycanlılarla real bərabərlik barədə zəmanət verməliyik. İş burasındadır ki, Qarabağ təkcə torpaq deyil, həm də bu bölgənin erməni əhalisidir. Buna görə də, biz Qarabağın erməni əhalisini sadaladıqlarıma əmin etməliyik. Ermənilər bacarıqlı və anlayan xalqdır. Düşünürəm ki, onlar bizi başa düşəcəklər".

R.İbrahimbəyovun yarıtmaz fəaliyyəti müxalif partiya yetkililəri tərəfindən də, ittiham hədəfinə çevrildi. "Ümid" partiyasının sədri İqbal Ağazadə bildirib ki, siyasətdən başı çıxmayan birinin siyasətə qatılması, ölkə rəhbəri vəzifəsinə iddia etməsi doğru seçim ola bilməzdi. Bu seçim olubsa belə, nəticəsi gözlər önündədir. "Siyasətlə peşəkarlar məşğul olmalıdırlar" deyən Ağazadə, onu da bildirb ki, siyasət siyasətçinin işidir".

Bir sözlə, Ə,Kərimli yarıtmaz siyasəti ilə AXCP ilə yanaşı, qeyri-rəsmi şəkildə, rəhbərlik etdiyi "Milli Şura"nı məhvə sürüklədi. Bundan sonra özünə hörmət edən və ictimai qınaqdan nəticə çıxarsa idi, Ə.Kərimli siyasətə əlvida deyərdi. Görünür, Ə.Kərimli özünə hörmət etmir.

***İ.ƏLİYEV***

## Xəzər rayonunda keçmiş məhkum marketlərdən oğurluq edib



Xəzər rayonunun Şüvəlan qəsəbəsi ərazisində yerləşən marketlərin birindən 640 manat dəyərində ərzaq məhsulları oğurlanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisəni törətməkdə şübhəli bilinən Oğuz rayon sakini, əvvəllər məhkum olunmuş Z.İsmayılov Xəzər Rayon Polis İdarəsinin 1-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb, daha bir nəfərin şəxsiyyəti müəyyən edilib. Z.İsmayılovun ətrafında aparılmış əməliyyat tədbirləri ilə onun həmin gün rayon ərazisindəki daha bir marketdən 570 manat dəyərində ərzaq məhsulları oğurlaması da məlum olub. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

## Balakən sakininin evindən narkotik vasitə götürülüb



Balakən Rayon Polis Şöbəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı növbəti uğurlu əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən rayonun Gərəkli kənd sakini, əvvəllər məhkum olunmuş 34 yaşlı Ramil Qandayev saxlanılıb. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış keçirilib. Evdən dörd kibrit qutusunda 11 qramdan artıq və sellofan torbanın içərisində 300 qram qurudulmuş marixuana aşkarlanaraq götürülüb. Faktla bağlı Balakən Rayon Polis Şöbəsində cinayət işi başlanıb, istintaq aparılır.

## Vladimir Putin Emmanuel Makronla görüşüb



Avqustun 19-da Rusiya Prezidenti Vladimir Putin və Fransa Prezidenti Emmanuel Makronun görüşü olub. Fransa Prezidentinin Breqanson iqamətgahında keçirilən görüş 3 saatdan çox davam edib. RİA informasiya agentliyi xəbər verir ki, prezidentlərin görüşünün nəticələri müzakirə olunub.

Qeyd olunub ki, E.Makron görüşdən əvvəl "Normand dördlüyü"nün (Rusiya, Fransa, Almaniya, Ukrayna) sammitinin təşkili ilə bağlı fikirlərini bildirib. V.Putin isə öz növbəsində, bu formatın alternativinin olmadığını diqqətə çatdırıb. Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutski prezidentlərin görüşünü ikitərəfli münasibətlərin, eləcə də müasir dünya siyasətində münaqişəli məsələlərin həllində bir addım kimi qiymətləndirib

## Nazarbayev Qazaxıstan haqqında klip çəkdirib



Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev "Instagram" səhifəsində vətən haqqında mahnı və həmin mahnıya çəkilmiş klip yerləşdirib. Nazarbayev klipdə Qazaxıstan çöllərini dolaşaraq mahnı oxuyur. Tarlada uşaqlar görünür. Qazaxıstanın birinci prezidenti onları qucaqlayır. Nazarbayev mahnısında bildirir ki, çox ölkələrdə olub, lakin onların heç biri qazax torpağı ilə müqayisəyə gəlmir. TASS agentliyi xəbər verir ki, mahnının sözləri Nursultan Nazarbayevə, musiqisi Altınbek Korazbayevə məxsusdur.

## Gülnara Kərimovaya qarşı yeni cinayət işi açılıb



Özbəkistanın Baş prokurorluğu ölkənin birinci prezidenti İslam Kərimovun böyük qızı Gülnara Kərimovaya qarşı yeni cinayət işi açıb. AZƏRTAC Baş prokurorluğun mətbuat xidmətinə istinadla xəbər verir ki, Gülnara Kərimova "Kuvaysement" və "Bekabadsement" zavodlarının səhmlərini çox aşağı qiymətə alıb və sonradan bu səhmləri yüksək qiymətə xarici sahibkarlara satıb, bununla da dövlətə külli miqdarda maddi ziyan vurub.

## Şabranda yaşayış binasında baş verən yanğın nəticəsində xəstəxanaya yerləşdirilənlərin sayı 7-yə çatıb



Avqustun 20-də Şabran şəhərində dördmərtəbəli yaşayış binasının elektrik şəbəkəsində baş verən yanğınla əlaqədar 7 nəfər xəstəxanaya yerləşdirilib. Səhiyyə Nazirliyinin mətbuat katibi Pərviz Abubəkirov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, Şabran Rayon Mərkəzi Xəstəxanasına müraciət edən 51 yaşlı kişiyə sağ topuğun kəsilmiş yarası, 1 kişi və 5 qadına isə tüstüdən boğulma, həmçinin stress diaqnozu qoyulub.

Onlardan iki nəfəri cərrahiyyə şöbəsinə, beş nəfər isə reanimasiyaya yerləşdirilib. Vəziyyətləri orta ağır qiymətləndirilir. Həyatları üçün təhlükə yoxdur. Qeyd edək ki, günorta saatlarında baş verən yanğın nəticəsində binanı qatı tüstü bürüdüyündən sakinlər dərhal təxliyə olunub. Hadisə yerinə Şabran Dövlət Yanğından Mühafizə Hissəsinin yanğınsöndürən maşını və canlı qüvvəsi, eləcə də Şabran Rayon Mərkəzi Xəstəxanasının təcili-tibbi yardım briqadaları cəlb edilib. Yanğın söndürülüb. Faktla bağlı araşdırma aparılır.

# Vətənə və dövlətə müxaliflik milli xəyanətə bərabərdir

***Uzun müddətdir ki, bu məzmunda bir yazı yazıb-yazmanaq barədə düşünüb-daşınırdım. Başlıcası, ona görə tərəddüd edirdim ki, təbii olaraq, ölkədə məni tanıyanlar arasında mövqeyimə müxtəlif baxışlarla yanaşanlar var. Bəzən ciddi-publisistik, bəzən də bir az yumor qarışıq yazılarımla mövqeyimi müdafiə etməyə çalışıram. Buna nə qədər nail olub-olmadığımı deyə bilmərəm. Ancaq bir həqiqəti qətiyyətlə deyə bilərəm ki, məni içimdən gəlməyən, həqiqət olduğuna əmin olmadığım hər hansı fikirləri səsləndirməyə həyatım boyu heç kəs məcbur edə bilməyib, bundan sonra da məcbur edə bilməz. Canımdan çox sevdiyim məmləkətim, bizi sevməyənlərin genişmiqyaslı hücumları ilə üz-üzə qaldığı bir zamanda, məni kağıza köçürməyə vadar edən bu düşüncələrimdə də səmimi olmaq başlıca qayəmdir. Yalnız həqiqət olduğuna daxili "mən"imin inandığı, vətəndaşlıq məsuliyyətimin təsirindən iliklərimə qədər narahatçılıq keçirdiyim məqamlarla bağlı düşüncələrimi cəmiyyətlə bölüşməyə qərar verdim.***



*Təhmasib Novruzov, "Azadlıq Hərakatçıları" İctimai Birliyinin sədri, yazıçı-publisist*

Azərbaycanda gedən Milli Azadlıq Hərakatına 1988 - 1989-cu illərdə elə simalar qoşuldular ki, onlar o zaman SSRİ kimi nəhəng imperiyanın yuxusuna haram qatan Azərbaycanın Milli Azadlıq Hərəkatından öz şəxsi mənafeləri (həm də onları hərəkatın içinə soxanların mənafeləri) naminə yararlanmaq istəklərini ortaya qoydular. Məhz həmin simalar hərəkatın xeyli sayda fəallarını da cəlb edərək, ümumxalq hərəkatını siyasiləşdirməyi və demokratik dəyişiklik adı altında hakimiyyət kreslosu uğrunda mübarizəyə yönləndirməyi bacardılar. Təəssüflə qeyd edirəm ki, ilkin dönəmdə, Dövlət Şurası ideyasını müdafiə edən Əbülfəz Elçibəy kimi şəxsi bu siyasi oyunda iştraka razı sala bildilər. Məhz AXC-nin hakimiyyətə gəlmək uğrunda savaşı, sonradan isə hakimiyyətdə olarkən, səriştəsiz idarəçiliyi gənc Azərbaycan Dövlətini "olum-qalım" dilemması ilə üz-üzə qoydu (hələ Qarabağda itirilmiş torpaqlardan danışmıram). Bu haqda çox deyilib, çox yazılıb və bütün bunları təkrarən deməyə ehtiyac görmürəm. Ancaq o zaman ümumxalq hərəkatını siyasi oyunlara sürükləyən və hakimiyyətdə ən yüksək postlarda əyləşib, ölkəni dərin uçurum başına çatdıran həmin şəxslərin bu gün, yenidən belə bir iddia ilə ortaya atılmalarını, yumşaq desək, siyasi simasızlıq hesab edirəm. Qoy oxucum məni qınamasın. Kimlərsə həmin simaların 1989-1993-cü illərdəki fəalliyyətlərini yaxından izləmək imkanında olmayıb, bu siyasət dəllallarının əsl üzlərini görmədiklərindən, onların bu gün pafoslu çıxışlarına aldana bilərlər. Ancaq mən və mənim kimi minlərlə hərəkatçı onları yaxşı tanıyır və bizim indiki halda, susmağımıza tarix heç vaxt haqq verməz.

Əsas mövzuya dönməzdən əvvəl, istərdim məni yaxından tanımayanlar, əmin olsunlar ki, mən heç vaxt heç kimin diktəsi ilə yazmamışam, bu gün də yazmıram. Mən Müstəqil Azərbaycan Respublikasının VƏTƏN DAŞInı sinəsində gəzdirən vətəndaşlarından olmaq istəyən biriyəm və məmləkətimin taleyinə şəxsi mənafelərim prizmasından deyil, dövlətçilik nöqteyi-nəzərindən yanaşmağa özündə güc tapmağa çalışanlardanam. Sadəcə olaraq, mən bəziləri kimi, "Primakovun uşaqları"ndan (bunun nə demək olduğunu o dövrün hərəkatçıları yaxşı bilirlər) olmamışam və müstəqillik uğrunda savaşa da kimlərinsə təhriki ilə sonradan qoşulmamışam.

## "MƏN"liyimizi "MƏNƏM" liklərə qurban verməli, yoxsa?..

Azərbaycan demokratik dövlətdir və ölkədə insan azadlığının, sivil vətəndaş-məmur münasibətlərinin ilbəil inkişaf etdiyi gözlərimiz qarşısındadır. Nəzərə allmalıyıq ki,SSRİ kimi millətlər və vətəndaşlar həbsxanası rejimindən qurtulmuş bir xalqın, beş-on il ərzində, yüz illərlə demokratiya tarixi olan ölkələrlə müqayisə edilməsi, əslində, siyasi səbatsızlıqdır. Düşünürəm ki, "Asan Xidmət"in yaradılması, xidmət sahələrinin ilbəil genişləndirilməsi, eyni zamanda, hər il aparılan kadr və idarəetmə islahatları da həyata keçirilən uğurlu fəliyyətlərdəndir. Ölkəyə sovet rejimindən miras qalmış korrupsiyanın aradan qaldırılması ilə bağlı indiki iqtidarın, xüsusi vurğulanmalıdır ki, konkret ölkə başçısının rəhbərliyi altında aparılan qətiyyətli mübarizə, artıq ciddi şəkildə öz bəhrəsini verməkdədir. Bu barədə geniş danışmağa ehtiyac görmürəm, çünki bütün bu dəyişikliklər hər kəsin gözləri qarşısında baş verir. Nəticə etibarilə xalqın tam əksəriyyəti tərəfindən rəğbətlə qarşılanan bu mübarizə, rüşvətlə yaşamağa adət etmiş bəzi məmurların yuxusuna haram qatıb. Xüsusilə, korrupsiya girdabından çıxa bilməyən belə məmurlar kənarlaşdırıldıqdan sonra ölkə büdcəsinə daxil olan milyardlarla vəsaitin xalqın sosial durumunun yaxşılaşdırılmasına yönəldilməsi, bir ildə iki sosial paketin ortaya qoyulması, digər məlum sosial addımların atılması, şübhə yox ki, həmin eks-məmurları ciddi narahat edir. Belədə həmin eks-məmurlar bir zmanlar iqtidarda təmsil olunmalarına rəğmən, məhz əməllərinə görə vəzifəsindən kənarlaşdırıldıqdan sonra, müxtəlif yollarla bu mübarizəyə əngəl törətməyə çalışırlar. Təbii ki, maskalanaraq! Bu, indiki vəziyyətdə Azərbaycan dövlətini tutduğu haqq yolundan sapdırmağa çalışan qüvvələrdən həm də ən təhlükəlilərindən biridir. Məşhur bir deyim var, rəbbim məni dostlarımdan qorusun, düşmənlərimdən özüm qorunaram. Bu baxımdan, hakimiyyətdə müəyyən post tutub, özünü bu iqtidarın siyasətini dəstəkləyən kimi göstərib, vəzifədən kənarlaşdırılandan dərhal sonra, ağacı içindən yeyən qurd kimi, dövlətin siyasətini içindən laxlatmağa çalışanlar, şəxsi mənafelərinə dövlətin gələcəyini qurban verməyə hazır olanlardır ki, onların dəyirmanlarına su tökənlərin də məsuliyyəti onlarla bərabərdir. Belə insanlar "mən"liyini şəxsi "mənəm"liyinə qurban verməklə, milli mənafeləri ayaq altına atmağa hazırdırlar.

İkinci təhlükəli qüvvə, demokratiya adı altında Azərbaycanın daxili işlərinə burunlarını soxmağa çalışan xarici qüvvələrdir. Təbii ki, həmin qüvvələr içərisində erməni lobbisi və ermənipərəst siyasilər baş roldadırlar. Onlar hər vasitə ilə ölkədə qarşıdurma, xaos yaratmağa, iqtidarı çıxılmaz vəziyyətdə qoymağa, sonda istədiklərini almaq üçün Azərbaycan hakimiyyəti ilə danışıqlar aparmağa çalışırlar. Onların istədikləri isə, bu xalqın istədiyi deyil, məhz özlərinə sərf edən istəklərdir. Hər gün mətbuatda, sosial şəbəkələrdə bununla bağlı kifayət qədər geniş məlumatlar dərc edildiyindən, bu barədə də çox danışıb, vaxt aparmaq istəməzdim. Yalnız onu deməyi vacib hesab edirəm ki, dünyada bizi, ümumən türk dilli xalqları sevməyənlər sevənlərdən çoxdur ki, bu da, bizim diplomatiyamızın gücsüzlüyü ilə bağlı deyil, xaricdəki həmin qüvvələrin məkrli niyyətlərinin təzahürüdür. Belə olan halda, bizlər o qüvvələrin ölkəmizə ayaq aça (siyasi mənada) bilməmələri, ölkəmizi Liviya, Misir, Suriya, Əfqanıstan və digər ölkələr kimi ayaqaltı etməmələri üçün milli və dövlətçilik məfkurəsi ilə silahlanmalı və belələrinin istəklərini beşiyindəcə boğmağı bacarmalıyıq. Yəni milli mənliyimizə şəxsi mənəmliklərimizi qurban verməməliyik. Böyük Məmməd Arazın dili ilə desək, bizlər "mən, mən" deyən yerdə, VƏTƏNin varlığı təhlükə ilə üz-üzə qala bilər və biz gələcək nəsillərin haqlı qınağına məruz qalmaqdan yaxamızı qurtara bilmərik.

Nəhayət, üçüncü bir qüvvə də var ki, ilkin baxışda demokratik cəmiyyətlərdə onun mövculuğu təbiidir. Söhbət siyasi müxalifətdən gedir və onsuz nə vətəndaş cəmiyyətinin, nə də dövlətçiliyimizin inkişafı mümkün deyil. Ancaq sivil cəmiyyətlərdə müxalifətin fəaliyyəti hansı prinsiplər əsasında formalaşırsa, bizdə də həmin prinsiplər əsas kimi qəbul edilməli, bəzi milli dəyərlərimizə uyğun dəyişikliklərlə bərabər dünya demokratiyasında müxalifliyin forma və məzmunu bizdə də tətbiq edilməlidir. Müxalif düşərgə, ilk növbədə, cəmiyyətin müxtəlif sahələrinin inkişafına dair konsepsiya və proqramlarını vətəndaşlara təqdim etməli, onun daha perspektivli olduğuna insanları inandırmalı, nəticədə, tərəfdaşlarının sayını artırmaqla səsvermə nəticəsində, daha çox səs toplayıb iqtidara gəlməyə çalışmalıdır. Yəni ölkənin iqtidarını xalq seçməli, kimin idarəçiliyini qəbul etməli olduğuna da xalq özü qərar verməlidir. Təəssüf ki, Azərbaycanda hələ də elə bir müxalif siyasi təşkilat yoxdur ki, onun alternativ inkişaf konsepsiyası olsun. Varsa belə, xalqın bundan xəbəri yoxdur. Belədə xalq səni necə tanısın, sənin hakimiyyətə gəldiyin təqdirdə bu xalqa nə verə biləcəyini seçici hardan öyrənsin? Yalnız iqtidarın nöqsanlarını axtarıb taparaq, qarışqanı filə döndərib, hakimiyyəti tənqid etməklə müxalifçilik bitmir.

Müxalif düşərgədəki siyasi mübarizədə mövcud olan bu anormallığın iki mühüm səbəbi var. Birinci səbəb on illərdir müxalifət düşərgəsində "at oynadan",yeni, sağlam, konstruktiv qüvvələrin yaranmasına imkan verməyən, müxaliflikdən hakimiyyətə gedib, ordan yenə müxalifliyə dönməyə məcbur olan qoca siyasilərin fəaliyyətidir. Bəla ondadır ki, həmin qüvvələr bir illik hakimiyyətləri zamanında dövlətin ən yüksək postlarında əyləşmiş və ölkəni "olum-qalım" dilemması ilə üz-üzə qoymuş simalar liderlik mövqelərindən bir addım da geri çəkilmirlər. Sivil ölkələrdə bir lider bir müxalif qüvvəyə bir, az-az hallarda, iki seçki müddətində rəhbərlik edir, istənilən nəticəni əldə edə bilmədikdə istefaya gedir. Azərbaycanda isə, əksinə, bir lider üst-üstə 15 seçkidə ağır məğlubiyyətlərə düçar olmasına baxmayaraq, hələ də liderlik kürsüsündən düşmək istəmir. Nəticədə, həmin liderlər onu seçməyən xalqı günahkar tutur, yuxarıda haqqında danışdığımız daxili və xarici qüvvələrlə separat danışıqlara gedir, qeyri-sivil yollardan bəhrələnməklə, iqtidar postunu zəbt etməyə cəhd göstərir. Əslində, bu sür fəaliyyət siyasət deyil, siyasi biznes fəaliyyətidir ki, o da, ümumilikdə, ölkəmizin gələcəyinə ciddi zərərlər yetirən fəaliyyət formasıdır. Onu demirəm ki, məhz hakimiyyətə gəlmək uğrunda mübarizədə 1990-cı illərin əvvəllərində apardıqları qeyri-sivil mübarizənin, eləcə də, hakimiyyətdə olduqları zaman idarəetmə səriştələrinin olmaması ucbatından, gənc Azərbaycan Respublikasına vurulan elə yaralar var ki, indiki güclü iqtidar belə hələ də o yaraların bəzilərini "müalicə" etməkdə çətinlik çəkir. 90-cı illərin əvvəllərində Sovet rəhbərliyinin, emənilərin ünvanına yağdırılan bəzi xoşagəlməz ifadələrin, bu gün Müstəqil Azərbaycanın rəhbərliyində təmsil olunan simaların ünvanına səsləndirilməsi isə, artıq onların əlacsızlıqlarından, bacarıqsızlıqlarından və ümidlərinin kəsildiyindən xəbər verir. Çünki onlara maliyyə və siyasi dəstək verən qüvvələr qarşısında, on illərdir ki, utanc vəziyyətə düşürlər və bu vəziyyətin də "günakarları" kimi indiki iqtidar yetkililərini görürlər. Sivil siyasi mübarizədə məğlubiyyətlərinin əsl səbəbini ört-basdır etmək, "axan bulağın" qurumasına imkan verməmək üçün "söyüş savaşı"nı işə salırlar. Belədə, yuxarıda sadaladığım digər qüvvələrlə yanaşı, həmin siyasilər də "mən"liklərini "mənəm"liklərinə qurban vermiş olurlar ki, nəticədə ən böyük zərbə yenə xalqa, sadə insanlara, nəhayət, dövlətçiliyimizə dəyir. Nə etməli?

## Azərbaycanın VƏTƏN DAŞını sinəsində gəzdirməkdən usanmayan həmvətənlərim!

İndiki kövrək durumda hər birimizin, ölkənin hər bir vətəndaşının üzərinə böyük və tarixi əhəmiyyətli məsuliyyət düşür. Ölkədə on milyondan artıq insan yaşayır. Rəhbər dövlət məmuru yeri isə böyüklü-kiçikli on minlərlə hesablanır. Əvvəla, hər kəsin vəzifə, yüksək rütbəli dövlət məmuru olmaq arzusu, təbii olsa da, buna nail ola bilməyənlər iqtidarı deyil, ilk növbədə, özünü, özünün bacarıqsızlığını qınamalıdır. Əksinə, vəzifə eşqilə alışıb-yanmaq, nail olmadıqda mövcud iqtidara düşmən münasibət bəsləmək vətəndaşlıq hissinin olmamasına dəlalət edir. İkincisi, bir vaxtlar yüksək vəzifədə çalışıb, özünü doğrultmadığına görə, hakimiyyətdən uzaqlaşdırılan eks-məmurlar unutmalı deyillər ki, əgər o, vəzifəsinin öhdəsindən layiqincə gəlsəydi, hakimiyyət hazır kadr kimi onu kənara itələməzdi. Yenə təqsiri özündə axtarmalı və yanlışlıqları üzərində düşünməlidirlər. Köhnə kişilər vəzifəni atla müqayisə edərdilər. Bu da, təsadüfi deyil. Atın belinə hər kəs qalxa bilər, ancaq onu çapmağı hər oğul bacarmaz. Ən naşıları isə, yarı yolda at yerə çırpar. Naşılığı üzündən yerə çırpılanlar isə atı deyil, atın sahibini deyil, özünün naşılığını qınayar.

Belə vəzifə düşkünlərindən, şəxsi mənafelərinə ümumxalq mənafelərini qurban verməyə hazır olanlardan ən çox yararlanmağa cəhd edənlər isə, bəzi müxalif siyasilərdir. Diqqət etsəniz, görərsiniz ki, vəzifədən qovulan eks-məmurların səsi, az sonra, açıq və ya gizli formada siyasi müxalif liderlərinin yanından gəlir. Olurlar ələkçiyə qıl uzadan. Dünənə kimi haqqında olmazın təhqiramiz ifadələri səsləndirən həmin siyasət dəllalları üçün bu ekslər olurlar gülməşəkər. Bunun da iki səbəbi var. Birincisi, zəhmət çəkmədən oğurluq və rüşvətlə əldə etdikləri milyonlardan bir az da onlara pay düşür. İkincisi, hakimiyyət daxilindəki bəzi gizli məlumatları həmin şəxslərdən əldə etməyə çalışırlar.Hər iki halda, hər iki tərəfin mənəviyyatsızlığının nəticəsində, iqtidara yalanlar, şər və böhtanlarla hücum edilir, xalqı isə guya problemləri həll edəcəklərinə inandırmağa çalışırlar. Yəni xalqda iqtidara inamsızlıq formalaşdırmağa çalışırlar.

Məqamı kifayət qədər lazımi dərəcədə qiymətləndirən xaricdəki anti-Azərbaycan qüvvələr də dərhal fəaliyyətə keçirlər. Çünki, indiki oturuşmuş iqtidarı aldatmaq, Azərbaycanın milli maraqları ilə üst-üstə düşməyən qərarları zorla qəbul etdirmək, sadəcə, mümkün deyil. Onlara, dünyada gedən proseslərdən baş çıxarmaqda çətinlik çəkən, "qloballaşma" adı altında milli mənafelərimizə zərərli qərarları qəbul edəcək vassal təbiətli fiqurlar gərəkdir. Biz, ölkə vətəndaşları olaraq, bu niyyətlərin mövcudluğunu anlamalı və onun reallaşmaması üçün hər cür dirəniş göstərməliyik.

Müxaliflik demokratik cəmiyyətin vacib elementlərindəndir və bunsuz demokratiyanın inkişafı ola bilməz. Lakin müxaliflik mövcud hakimiyyətə, onun ayrı-ayrı məmurlarına qarşı yönəldilə bilər, dövlətə, dövlətçiliyə, VƏTƏNƏ və bu VƏTƏNİ VƏTƏN edən xalqa qarşı müxaliflik, əslində, milli xəyanətə bərabərdir. Hər kəs içində güc tapmalı, xəyanətə bərabər bu yoldan vaxtında çəkilməlidir. Əks-təqdirdə, sonrakı peşimançılıq, min illər əvvəl də fayda verməyib, bu gün də verməyəcək...

XX əsr Azərbaycan poeziyasının sönməz ulduzlarından olan böyük şairimiz Məmməd Arazın "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı" misrasının fəlsəfi yükünü dərk edib, "Mamır olub qayasında bitməyə" hazır olduğumuz AZƏRBAYCAN adlanan VƏTƏNİMİZİN "bizə oğul" deməsi naminə içimizdə VƏTƏN DAŞI formalaşdırmağa borcluyuq. Bu DAŞ hər zaman gərəklidir. Bu gün isə, xüsusilə, vacibdir...

# İnsan hüquqları sisteminin elementləri

***Vətəndaş hüquqları təbii-hüquqi başlanğıcı əks etdirən səlahiyyətlər kompleksini ifadə edir. Bu səlahiyyətlər kompleksi dövlətlə və cəmiyyətlə qarşılıqlı münasibətlərdə şəxsiyyətin fərdiliyini və orijinallığını təmin edir. Bu və yuxarıda nəzərdən keçirdiyimiz məqamlar, aydın göstərir ki, insan hüquqları sistemi olduqca mürəkkəbdir. Bu sistemi təşkil edən çoxsaylı elementlər olduqca mürəkkəb qarşılıqlı əlaqə kompelksinə malikdirlər.***

Daşqın Qənbərov yazır: “Ümumiyyətlə, müasir mərhələdə insan hüquq və azadlıqları sisteminin mürəkkəbliyi insan hüquqlarının universal təsnifatının verilməsini qeyri-mümkün edir. Nəzərdən keçirdiyimiz insan hüquqları belə, yetkin təsnifatın aparılmasına imkan vermir. Fikirlərimizi bir daha ümumiləşdirərək və insan hüquqları sisteminin tarixi formalaşması tendensiyalarını təhlil edərək, qeyd edə bilərik ki, ictimai münasibətlər sahəsindən asılı olaraq vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqları fərqləndirmək mümkündür. Sosial normalara mənsubluğa istinad edərək, təbii və pozitiv hüquqları ayırmaq mümkündür. Artıq əvvəlki hissədə nəzərdən keçirdiyimiz kimi, təbii hüquqların əsasını mənəvi normalar təşkil etdiyi halda, pozitiv hüquqlar yazılmış hüquqi normaları ifadə edirlər. Şəxsiyyətin siyasi-hüquqi statusuna uyğun olaraq insanın və vətəndaşın hüquq və azadlıqları mövcuddur. Bundan başqa, fərdi və kollektiv hüquqlar da ayrıca elementlər kimi nəzərdən keçirilir”.

İnsan hüquqları sistemini nəzərdən keçirən zaman, ayrıca cəmiyyət-dövlət münasibətlərinə də diqqət yetirmək lazımdır. Çünki cəmiyyət-dövlət münasibətləri şəxsiyyətin cəmiyyət və dövlət qarşısındakı öhtəliklərini də üzə çıxarmış olur. Belə ki, cəmiyyəti təşkil edən ayrı-ayrı fərdlər cəmiyyət-dövlət qarşılıqlı əlaqələrinin və münasibətlərinin xarakterini müəyyənləşdirirlər. Şəxsiyyətin öhtəlikləri hüquq və azadlıqlardan sonra şəxsiyyətin hüquqi statusunun ikinci əsas komponentidir. Şəxsiyyətin hüquqi öhtəlikləri dedikdə, insanın davranışları ilə bağlı dövlət tərəfindən müəyyənləşdirilən və təminat verilən tələbatlar, tələb olunan davranışların rəsmi ölçüləri başa düşülür. Şəxsiyyətin hüquq və öhtəlikləri öz aralarında obyektiv qarşılıqlı əlaqəli olurlar ki, bu da şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarının uzlaşdırılmasının ifadəsi kimi qəbul olunur. Deməli, şəxsiyyətlə dövlət arasında zəruri, qaçılmaz qarşılıqlı asılılıq mövcuddur. Dövlət tərəfindən tam həcmdə hüquq və azadlıqların qorunması, insanların vətəndaş və hüquqi məsuliyyətləri, qanunvericiliyin təkmilləşdirilməsi, əhalinin hüquqi mədəniyyət səviyyəsinin yüksəldilməsi, həmçinin, qeyd etdiyimiz bu istiqamətlərdə məhsuldar beynəlxalq əməkdaşlıq, bütövlükdə, cəmiyyətin inkişafının əvəzolunmaz şərti rolunda çıxış edir. D.Qəmbərov göstərir ki, Əlavə olaraq, insan hüquqları sistemini təhlil edərkən, həm də insan hüquqları ilə vətəndaş hüquqları arasındakı sərhədləri də müəyyənləşdirmək lazım gəlir. Artıq nəzərdən keçirdiyimiz çoxsaylı məqamlara istinad edərək, bir daha vurğulayaraq ki, insan hüquqları təbii əsaslara malikdir və fərddən ayrılmazdır. İnsan hüquqları ərazi və milli müstəvilərdə nəzərdən keçirilmir və dövlətin qanunvericilik aktlarında təsbit olunub-olunmamasından asılı olmayaraq, mövcud olur. İnsan hüquqlarını səciyyələndirən bır çox məqamlarını artıq nəzərdən keçirdik. Əlavə olaraq, onu da qeyd edək ki, insan hüquqları beynəlxalq hüquqi tənzimlənmənin və müdafiənin obyekti rolunda çıxış edir. İnsan hüquqlarının dövlətin qanunvericilik aktlarında, ehtiva olunduğu təqdirdə, onlar müvafiq dövlətin vətəndaş hüquqları kimi nəzərdən keçirilir. İnsan hüquqları ilə vətəndaş hüquqları arasında müəyyən sərhədlənmə, məhz buradan başlayır. Bu, qeyd etdiklərimizə, müvafiq olaraq, vətəndaş hüquqlarını da səciyyələndirə bilərik. Beləliklə, vətəndaş hüquqları dedikdə, dövlətin normativ -hüquqi aktlarında əksini tapmış təbii səlahiyyətlər toplusu başa düşülür. Bu hüquqlar həm də cəmiyyətin və dövlətin inkişafı gedişində əldə olunmuş səlahiyyətləri ifadə edirlər. Vətəndaş hüquqlarını səviyyələndirən başlıca cəhət ondan ibarətdir ki, onlar mütləq şəkildə konstitusiyalarda




və digər qanunvericilik aktlarında təsbit olunurlar və dövlət tərəfindən müdafiəsi təmin olunur. Vətəndaş hüquqları insanı dövlət təşkilatı birliyinin üzvü kimi sanki ixtisaslaşdırır. D.Qəmbərovun fikrincə, insan hüquqları sisteminin mühüm elementlərindən birini həm də şəxsiyyətin hüquqları təşkil edir. Şəxsiyyətin hüquqları dedikdə isə, konkret vəziyyətlərdə konkret fərdə mənsub olan hüquqlar başa düşülür. Bu hüquqların həcmi insanın sosial-iqtisadi vəziyyətindən, ictimai-siyasi statusundan, onun iş və yaşam şəraitindən asılı olur. Şəxsiyyət dedikdə isə, insan, vətəndaş və xarici vətəndaş, vətəndaşlığı olmayan şəxslər başa düşülür. Şəxsiyyətin hüquqları insan fərdi xüsusiyyətlərini, onun sosial yetişkənlik səviyyəsini, hüququ dərk etmə və öz hərəkətlərinə görə cavabdehlik daşıma bacarıqlarını səciyyələndirir. Müasir dünya təcrübəsini dərindən araşdırmaqla, belə qənaətə gəldik ki, hazırkı mərhələdə beynəlxalq hüquqi aktlarda, hüquqi ədəbiyyatlarda, inkişaf etmiş ölkələrin qanunvericiliklərində “insan hüquqları”, “vətəndaş hüquqları” və “şəxsiyyətin hüquqları”, demək olar ki, eyni mənalarda işlədilir. Bunlar arasında sərhədlərə diqqətin etirilməsi bir qayda olaraq, insan hüquqları probleminin bu və ya digər aspektini fərqləndirmək məqsədinə xidmət edir Əsas insan hüquq və azadlıqları beynəlxalq hüquqi aktlarda və konkret dövlətlərin konstitusiyalarında təsbit olunurlar. İnsan və vətəndaş hüquq və azadlıqlarının təsnifatının ümumi qəbul olunmuş kriteriyalarından biri rolunda cəmiyyətin həyat fəaliyyəti sahəsi çıxış edir ki, burada da, şəxsiyyətin bu və ya digər tələbatları və maraqları reallaşır, məhz bu kriteriyaya, müvafiq olaraq, insan hüquqları sisteminin digər elementlərini fərqləndirirlər. Bu elementlər rolunda aşağıdakı hüquqlar çıxış edirlər:

-vətəndaş;
-iqtisadi;
-siyasi;
-sosial;
-mədəni;
-ekoloji;
-informasiya.

Göründüyü kimi, insan hüquqları sisteminin strukturunu formalaşdıran bu hüquqlar həyat fəaliyyətinin xüsusiyyətlərinə uyğun olaraq sərhədləndirilirlər.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

İnsan hüquqları sistemini nəzərdən keçirən zaman, ayrıca cəmiyyət-dövlət münasibətlərinə də diqqət yetirmək lazımdır. Çünki cəmiyyət-dövlət münasibətləri şəxsiyyətin cəmiyyət və dövlət qarşısındakı öhtəliklərini də üzə çıxarmış olur. Belə ki, cəmiyyəti təşkil edən ayrı-ayrı fərdlər cəmiyyət-dövlət qarşılıqlı əlaqələrinin və münasibətlərinin xarakterini müəyyənləşdirirlər. Şəxsiyyətin öhtəlikləri hüquq və azadlıqlardan sonra şəxsiyyətin hüquqi statusunun ikinci əsas komponentidir. Şəxsiyyətin hüquqi öhtəlikləri dedikdə, insanın davranışları ilə bağlı dövlət tərəfindən müəyyənləşdirilən və təminat verilən tələbatlar, tələb olunan davranışların rəsmi ölçüləri başa düşülür. Şəxsiyyətin hüquq və öhtəlikləri öz aralarında obyektiv qarşılıqlı əlaqəli olurlar ki, bu da şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarının uzlaşdırılmasının ifadəsi kimi qəbul olunur. Deməli, şəxsiyyətlə dövlət arasında zəruri, qaçılmaz qarşılıqlı asılılıq mövcuddur.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 21 avqust


## Elvis Preslinin limuzini yeni sahibini axtarır




“Rok-n-rol kralı” Elvis Presliyə məxsus “Continental” limuzini Kaliforniyada “Mecum Auctions” hərracında satılıb. 1967-ci ilin buraxılışı olan bu maşın Elvis Preslinin meneceri Tom Parkerin müğənniyə və nişanlısı Pristsillaya toy hədiyyəsi olub. “Autimobili.ru” saytında yer alan məlumatda deyilir ki, Presli ailəsi bu maşını bəyənib və bir neçə il Memfis rayonunda gəzintilər üçün ondan istifadə edib. Sonra o, müğənninin avtokolleksiyasında yer alıb. Daha sonra limuzini tanınmış çikaqolu avtomobil kolleksiyaçısı Tom Petrozini alıb.

Limuzinin yeni sahibi ondan ailəvi gəzintilər və işgüzar görüşlər üçün istifadə edib və sonda o da limuzini öz avtoparkına göndərib. Buna görə də avtomobil onilliklər ərzində qarajda hərəkətsiz vəziyyətdə toz bağlayıb. 2014-cü ildə Tom Petrozininin vəfatından sonra varisləri məşhur limuzini satmaq barədə düşünüblər, amma yalnız indi avtomobildən ayrılmaq qərarına gəliblər. Avtomobilin qiyməti, çox güman, bir o qədər də yüksək olmayacaq, çünki hazırda yaxşı vəziyyətdə deyil. Xüsusilə salonu bərbad gündədir və bərpa olunmağa ehtiyacı var.

## Yaponiyada bir həftədə istilərdən 7 nəfər ölüb



Son bir həftədə Yaponiyada istilərdən ən azı yeddi nəfər ölüb, yeddi mindən çoxu isə günvurma diaqnozu ilə xəstəxanalara yerləşdirilib. Bu barədə avqustun 20-də Yaponiya Baş Yanğınsöndürmə İdarəsi məlumat yayıb. Qeyd edilir ki, son yeddi gündə günvurma nəticəsində 7338 nəfər xəstəxanaya yerləşdirilib. Hazırda bütün Yaponiya ərazisində kəskin istilər hökm sürür. Bir sıra rayonlarda havanın temperaturu 35 dərəcəni ötür.

Xəsarət alanların və ölənlərin əksəriyyəti, əsasən evlərdə qənaət məqsədilə kondisioner işlətməyən yaşlı insanlardır. Hakimiyyət orqanları sakinləri daha çox maye qəbul etməyə və uzun müddət Günəş altında qalmamağa çağırır.

## Dünyada ən məşhur brilyantlardan biri satışa çıxarılacaq



Dünyada ən məşhur brilyantlardan biri - 14,83 karatlıq “Qızılgül ətri” brilyantı “Alrosa” almazçıxarma şirkəti tərəfindən bu ilin noyabrında satışa çıxarılacaq. Bu məlumatı Bloomberg agentliyinə şirkətin nümayəndəsi verib.

Bor və azot elementlərinin qarışığından yaranan rəngli brilyantlar dünya almaz bazarında ən bahalı hesab olunur. Məhz çəhrayı və qırmızı rəngli brilyantlar daha çox alıcı cəlb edir. “Fancy Color Research” fondunun idarə heyətinin sədri, ekspert İden Raçminovun sözlərinə görə, “Qızılgül ətri” brilyantı tarixdə ən bahalı çəhrayı daş ola bilər. Onun sözlərinə görə, qiymətli daşın dəyəri 60-65 milyon dollar arasındadır.

“Alrosa” şirkətindən brilyantın hansı qiymətə satışa çıxarılacağına bildirməsələr də, qeyd ediblər ki, “Qızılgül ətri” Rusiyada cilalanmış ən bahalı daş olacaq. Hərracın keçirilməsi üzrə təşkilati məsələlər isə gələn ay həll olunacaq. Bildirilir ki, ən bahalı və 59,6 karat çəkisi olan qiymətli daş 2017-ci ildə Sotbi hərracında 71 milyon dollara satılıb.

## Hacı Əliyev: “Dördüncü dəfə dünya çempionu olmaq arzusundayam”



Dünya çempionatına çox az vaxt qalır. Bu nüfuzlu yarışda hədəfim qızıl medaldır. Dördüncü dəfə dünya çempionu olmaq arzusundayam.

Bu sözləri sərbəst güləş üzrə üçqat dünya çempionu Hacı Əliyev Qazaxıstanın paytaxtı Nur-Sultanda keçiriləcək dünya çempionatına hazırlıqla bağlı AZƏRTAC-a açıqlamasında deyib.

Yığma komandanın dünya çempionatına ciddi hazırlaşdığını qeyd edən güləşçi bildirib: “Yığmamız bu nüfuzlu turnirdə yüksək nailiyyətlər qazanmaq əzmindədir. Mundial həm də Tokio Olimpiadasına lisenziya baxımından böyük əhəmiyyət daşıyır. İlk altılıqda yer alacaq güləşçilər Olimpiya Oyunlarına vəsiqə əldə edəcəklər. Komandamız yarışa ciddi hazırlaşır. Təlim-məşqlər intensiv davam edir. Çalışacağıq ki, ölkəmizi yüksək səviyyədə təmsil edək”.

## Poqbaya qarşı irqçi hücum




“Mançester Yunayted”in fransalı yarımmüdafiəçisi Pol Poqba İngiltərə Premyer Liqasının ikinci turunda “Vulverhempton”la keçirilən matçdan sonra azarkeşlərin irqçi şüarlarına məruz qalıb. “Sky Sports” xəbər verir ki, “qırmızı şeytanlar”ın bəzi fanatları 1:1 hesabı yekunlaşan görüşdə fransalı oyunçunun təyin olunan penaltini dəqiq yerinə yetirə bilmədiyi üçün ona qarşı sosial şəbəkədə irqçi ifadələr işlədiblər.

Klub rəhbərliyi və Poqbanın komanda yoldaşları bu cür halların futbola yaraşmadığını, belə təhqirlərə qarşı tədbirlər görülməsinin vacibliyini bildiriblər. “Mançester Yunayted” bununla bağlı sosial hesabında yazıb: “Komandadakı hər kəs Poqbaya qarşı edilən irqçi ifadələri mənfi qarşılayır. Bu, ürəkbulandırıcı mənzərədir”.

## Bədii gimnastlarımız dünya kubokunda çıxış ediblər




Bədii gimnastika üzrə yığma komandamızın üzvləri Belarusun paytaxtı Minskdə təşkil olunan “Challenge” seriyasına aid dünya kuboku yarışlarında çıxış ediblər. Azərbaycan Gimnastika Federasiyasının məlumatında deyilir ki, bir müddət yarışlara fasilə verdikdən sonra gimnastlarımız üçün ilk start olan bu turnirdə Aliyə Paşayeva, Ayşən Bayramova, Diana Əhmədbəyli, Zeynəb Hümmətova və Darya Sorokinadan ibarət qrup hərəkətləri komandası çoxnövçülükdə 51.150 xalla 9-cu yerdə qərarlaşıb. Qızlarımız, həmçinin ayrı-ayrı kompozisiyalar üzrə çıxışlara görə də sıralamada 9-cu olublar.

Yarışlarda fərdi proqramda ölkəmizi Zöhrə Ağamirova və Veronika Qudis təmsil ediblər. Gimnastlarımız çoxnövçülükdə müvafiq olaraq 18-ci və 23-cü yerdə qərarlaşıblar.

## “Fənərbaxça”da ciddi zədə: Viktor Mozes zədələnib




“Fənərbaxça”nın futbolçusu Viktor Mozes zədələnib. Türkiyə mətbuatının yazdığına görə, superliqanın ilk turunda “Qazişehir”lə doğma meydanda keçirilən matçda (5:0) zədələnən nigerliyalı yarımmüdafiəçinin əzələsində yırtıq aşkarlanıb. Onun ən azı üç həftə yaşıl meydanlardan uzaq qalacağı bildirilib. Qeyd edək ki, Mozes “Qazişehir”lə görüş 1 qol və 1məhsuldar ötürmə ilə yadda qalıb.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**